HƏR BİR VƏTƏNDAŞ VERGİ ÖDƏMƏKDƏN ŞƏRƏF DUYMALIDIR

# Vergilər

Vergilər



Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik.

Heydər ƏLİYEV

№ 23 (865) ▪ 21 iyun 2017 www.vergiler.az Qiymәti: 60 qәp.

# BÖYÜK QAYIDIŞIN BAŞLANĞICI...

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ermәni qәsbkarları tәrәfindәn işğal olunan Cəbrayıl rayonunun yenidən qurulan Cocuq Mərcanlı kəndində görülən işlərlə tanış olmaq məqsədilə iyunun 14-də buraya gəlib, sakinlərlə görüşüb.**



Dövlət başçısının səfəri yeni salınan kənd yolunun açılışı ilə başlayıb. Bildirilib ki, ümumi uzunluğu 9 kilometr, eni 12 metr olan, strateji əhəmiyyəti ilə seçilən bu yolun inşası zamanı zəruri olan yerlərdə su keçidləri tikilib, uzunluğu 24 metr olan ikiaşırımlı mövcud körpü bərpa edilib. Yol üzərində 76 yol nişanı və məlumatverici lövhələr quraşdırılıb, piyada zolaqları, yol-cizgi və yolgöstərici xətləri çəkilib.

Prezident İlham Əliyev kəndin bərpası çərçivəsində görülən işlərlə tanışlıq zamanı kənd sakini Oqtay Həziyevin evində olub. Səkkiz nəfərlik bu ailə, təhlükəli olmasına baxmayaraq, 1994-cü ilin aprelindən kənddə yaşayır və bütün məcburi köçkünlərə nümunə olmaqla yanaşı, əsl vətənpərvərlik və fədakarlıq göstərir. Görüş zamanı doğma torpağa dərin bağlılıq nümayiş etdirməklə insanların vətənpərvərlik hisslərinin yüksəldilməsində göstərdiyi şəxsi nümunəyə görə Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinin sakini Oqtay Həziyevin 1-ci dərəcəli «Əmək» ordeni ilə təltif edilməsi haqqında Azərbaycan Prezidentinin imzaladığı sərəncam oxunub. Dövlətimizin başçısı birinci dərəcəli «Əmək» ordenini və evin orderini Oqtay Həziyevə təqdim edib.

Sonra Prezident İlham Əliyev kəndi gəzib. Birinci mərhələdə kənddə 10 hektar ərazidə 50 fərdi evin və müvafiq infrastrukturun tikintisi aparılıb. Tikilmiş evlərə Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndindən olan və əsasən Bakı şəhərində müvəqqəti məskunlaşmış məcburi köçkünlər köçürüləcək. Ümumi sahəsi 3850 kvadratmetr olan mənzillərin 20-si ikiotaqlı, 25-i üçotaqlı, 5-i isə dördotaqlıdır. Məcburi Köçkünlərin Sosial İnkişaf Fondu tərəfindən görülən işlər nəticəsində kəndin küçələrində işıqlandırma sistemi qurulub, su, qaz, telefon xətləri çəkilib, subartezian quyusu qazılıb, 100 kubmetrlik su anbarı inşa edilib. Yollara və səkilərə asfalt örtüyü salınıb, yaşıllaşdırma işləri aparılıb. Kənddə müasir standartlara cavab verən yeni yarımstansiya inşa edilib. Yeni Komplekt Transformator Məntəqəsi, həmçinin subartezian quyusuna xidmət edəcək transformator quraşdırılıb. Bununla da Cocuq Mərcanlı qaçqın və məcburi köçkünlər üçün inşa edilmiş sayca 96-cı, məcburi köçkünlərin öz yurdlarına qaytarıldığı ilk yaşayış məskəni kimi tarixə düşüb. Hazırda 400 ev təsərrüfatı, 1428 sakinin qeydiyyatda olduğu kənd əhalisinin əksəriyyəti yığcam şəkildə Biləsuvar rayonu ərazisində salınmış məcburi köçkün qəsəbələrində məskunlaşıb. Respublikanın 17 şəhər və rayonunda müvəqqəti yaşayan həmin ailələrdən 250-dən çoxu müraciət edərək öz yurdlarına qayıtmaq arzusunda olduqlarını bildiriblər.

Dövlətimizin başçısı yeni inşa olunan 96 şagird yerlik məktəblə də tanış olub. Məktəbdə Cəbrayılın işğaldan əvvəlki vəziyyəti, rayonun tanınmış xadimləri, ali məktəblərə yüksək balla qəbul olan rayonun məzunları, bu kənddə ermənilərin törətdikləri vandalizm, vəhşilik, 23 il doğma kəndini tərk etməyən Həziyevlər ailəsi, Prezident İlham Əliyevin tapşırığı ilə xarici KİV nümayəndələrinin, diplomatik korpusun və beynəlxalq təşkilatların rəhbərlərinin Cocuq Mərcanlı kəndinə səfərləri əks olunan fotostendlər kənd haqqında dolğun təəssürat yaradır. Məktəbin foyesində ümummilli lider Heydər Əliyevin büstü, dahi rəhbərin məcburi köçkünlərə diqqət və qayğısını əks etdirən fotostend qoyulub. Dəhlizdə rəşadətli Azərbaycan Ordusunun uğurlu aprel döyüşləri, Cocuq Mərcanlı kəndinin bərpadan əvvəlki və sonrakı görüntülərinin əks olunduğu stendlər yer alıb. Sinif otaqları, informatika, gənclərin çağırışaqədərki hazırlıq kabinələri, müəllimlər otağından ibarət məktəb binası lazımi inventar və avadanlıqlarla, istilik sistemi və internetlə təchiz edilib. Məktəbin həyətində qazanxana, voleybol və basketbol meydançaları yaradılıb, yaşıllıqlar salınıb. Bu məktəbdə dərs deyəcək müəllimlər və təhsil alacaq uşaqlar indi ikiqat sevinc hissi keçirirlər.

Prezident İlham Əliyev daha sonra Cocuq Mərcanlı kəndində inşa edilən Şuşa məscidi ilə tanış olub. Məscidin tikilməsi, həmçinin, 2017-ci ilin ölkəmizdə «İslam Həmrəyliyi İli» elan edilməsinə dəyərli töhfədir. Məsciddə yaradılan şəraitlə tanış olan dövlətimizin başçısına məlumat verilib ki, 50 sot ərazidə inşa edilən məscidin minarələrinin hündürlüyü 26 metrdir. Azərbaycan və Şərq memarlığının nadir incilərindən sayılan tarixi Şuşa məscidinin bənzəri olan bu dini ibadətgahda dindarlar üçün hər cür şərait yaradılıb.

Məscidlə tanışlıqdan sonra Cocuq Mərcanlı kəndinin ərazisini gəzən dövlətimizin başçısına nəzərdə tutulan işlər barədə ətraflı məlumat verilib. Bildirilib ki, qaçqın və məcburi köçkünlərin sosial problemlərinin həlli üçün son 23 ildə 6 milyard manatdan çox vəsait sərf olunub. Ümumilikdə indiyədək 95 müasir qəsəbə və çoxmərtəbəli binalardan ibarət yaşayış kompleksi salınıb. Bunun da 95 faizi son 13 ildə inşa edilib. Görülən işlər nəticəsində 50 min ailənin və ya 250 min nəfər qaçqın və məcburi köçkünün mənzil şəraiti yaxşılaşdırılıb. Hazırda 80 min ailə və ya 340 min məcburi köçkünün mənzil şəraitinin yaxşılaşdırılmasına ehtiyac var. Bu il Tərtər rayonunda 1170 məcburi köçkün ailəsi üçün dördmərtəbəli 34 yaşayış binasının tikintisinin başa çatdırılması nəzərdə tutulur. Artıq Abşeron rayonunun Masazır və Ramana qəsəbələrində yaşayış binalarının tikintisinə başlanılıb, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın iştirakı ilə Qaradağ rayonunda 1026 məcburi köçkün ailəsi üçün yeni yaşayış kompleksinin təməli qoyulub.

Bütün bunlar göstərir ki, Prezident İlham Əliyev ölkədə milli-mənəvi dəyərlərin qorunub saxlanmasında müstəsna xidmətlər göstərir. Dövlətimizin başçısı İslam dininin xalqımızın həyatındakı rolunu, onun milli kimliyimizin formalaşmasındakı əhəmiyyətini nəzərə alaraq ölkədəki dini ibadətgahların qorunmasında, onların gələcək nəsillərə çatdırılmasında əsl fədakarlıq nümayiş etdirir.

Dövlətimizin başçısı Cocuq Mərcanlı kəndində görülən işləri yüksək qiymətləndirib, tapşırıq və tövsiyələrini verib.

# Azərbaycan erməni işğalçılarının istənilən hərbi təxribatına dərhal adekvat cavab verəcək

Prezident İlham Əliyev iyunun 19-da ATƏT-in Minsk qrupunun həmsədrləri Stefan Viskontini, İqor Popovu, Riçard Hoqlandı və ATƏT-in fəaliyyətdə olan sədrinin xüsusi nümayəndəsi Anji Kaspşiki qəbul edib.

Dövlətimizin başçısı həmsədrlərin Ermənistana və Azərbaycanın işğal olunmuş ərazilərinə səfərindən sonra təmas xəttində ermənilər tərəfindən növbəti hərbi təxribat törədildiyini və bunun nəticəsində bir əsgərimizin həlak olduğunu və Azərbaycan Ordusunun, həmişə olduğu kimi, adekvat cavab verdiyini diqqətə çatdırıb: «Bu, mənim üçün təəccüblü deyil, çünki Ermənistan tərəfi həmişə hansısa mühüm tədbir və ya sizin səfəriniz ərəfəsində bu cür təxribatlar törədir və biz bunun bir neçə dəfə - 2014-cü, 2016-cı illərdə və indi də şahidi olmuşuq. Onlar, sözsüz, bilirlər ki, mülki əhali və hərbi qulluqçularımıza qarşı istənilən hərbi təxribata biz adekvat cavab verəcəyik... Hadisələrin xronologiyasına baxmağınız kifayətdir ki, nə vaxt Azərbaycan əsgərinin Ermənistan ordusu tərəfindən öldürüldüyünü və nə zaman buna Azərbaycan tərəfindən adekvat cavab verildiyini görəsiniz. Beləliklə, təmas xəttində son atəşkəs pozuntusuna görə məsuliyyət Ermənistan rəhbərliyinin üzərinə düşür və baş verə biləcək hər hansı hadisəyə görə bütün məsuliyyəti işğalçı Ermənistan ordusu daşıyır».



Dövlətimizin başçısı onu da bildirib ki, Azərbaycan tərəfi atəşkəs rejiminə sadiqdir: «Bu, danışıqlar prosesini sürətləndirmək üçün mühüm amildir. Lakin baş verənlər aydın şəkildə göstərdi ki, Ermənistan, nəyin bahasına olursa-olsun, Minsk qrupu həmsədrlərinin fəaliyyətini pozmağa çalışır». Dövlətimizin başçısı vurğulayıb ki, Ermənistan diqqəti yalnız təhlükəsizlik məsələlərinə yönəltmək istəyir və bütün bu baş verənləri Azərbaycanı atəşkəsi pozmaqda günahlandırmaq üçün bir bəhanə kimi istifadə edir. Bu, tamamilə haqsız və ədalətsiz bir mövqedir.

Prezident İlham Əliyevə bəyan etdiyi fikirlərinə görə minnətdarlığını bildirən ATƏT-in Minsk qrupunun rusiyalı həmsədri İqor Popov qeyd edib ki, həmsədrlərin Azərbaycana səfəri ərəfəsində baş verən bu ciddi atəşkəs pozuntusu dərin təəssüf hissi doğurur: «Biz səfərimizin yekunu olaraq qəbul edəcəyimiz bəyanatda bu vəziyyəti əks etdirəcəyik».

Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı aparılan danışıqların hazırkı vəziyyəti və perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.

## Tərəfdaşlıq sazişinə dair danışıqlar uğurla davam edir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 16-da Avropa İttifaqının genişlənmə danışıqları və Avropa Qonşuluq Siyasəti üzrə komissarı Yohannes Hanın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. Azərbaycan ilə Avropa İttifaqı arasında tərəfdaşlığa dair yeni saziş üzrə danışıqların uğurla davam etdirildiyini bildirən dövlətimizin başçısı Aİ ilə tərəfdaşlığın gündəliyində siyasi dialoq, iqtisadi əməkdaşlıq, enerji və digər sahələri əhatə edən geniş məsələlərin durduğunu qeyd edib.

Yohannes Han Prezident İlham Əliyevin Brüsselə son səfərinin uğurlu keçdiyini, məhz bu səfərdən sonra Azərbaycan ilə Avropa İttifaqı arasında tərəfdaşlıq sazişi üzrə danışıqların başlandığını qeyd edib və danışıqların konstruktiv ruhda davam etdirildiyini bildirib. Avropa İttifaqı ilə Azərbaycanın ikitərəfli münasibətlərə təsir göstərə biləcək məsələlərin həlli yollarını müəyyənləşdirməsinin vacibliyini vurğulayan qonaq əlaqələrimizin gələcəkdə daha da inkişaf etdirilməsi üçün qarşılıqlı marağın olduğunu qeyd edib. Bildirib ki, Avropa İttifaqı qonşu ölkələrdə sabitliyin mövcud olmasında maraqlıdır və Azərbaycan regionda və daha geniş məkanda bu baxımdan mühüm rol oynayır.

## Azərbaycanla əməkdaşlıq məmnunluq doğurur

Prezident İlham Əliyev iyunun 15-də Parlamentlərarası İttifaqın baş katibi Martin Çunqonqu qəbul edib. Azərbaycana səfərindən böyük məmnunluq hissi keçirdiyini bildirən qonaq qeyd edib ki, ölkəmiz haqqında nə qədər çox məlumat əldə edirsə, Azərbaycana marağı bir o qədər artır. Ölkəmizdə müxtəlif dinlərin nümayəndələrinin dinc şəraitdə yaşamasının önəmini qeyd edən Martin Çunqonq Parlamentlərarası İttifaqın Azərbaycan ilə əməkdaşlıqda xüsusilə maraqlı olduğunu bildirib.

Azərbaycan haqqında dolğun və obyektiv məlumatların yayılmasında maraqlı olduğumuzu deyən Prezident İlham Əliyev müxtəlif ölkələrdən qonaqların, o cümlədən parlamentarilərin respublikamıza səfərə gələrək inkişafı öz gözləri ilə görməsinin əhəmiyyətini vurğulayıb. Dövlətimizin başçısı Azərbaycanın MDB, Avropa Şurası, ATƏT və digər təşkilatların parlament assambleyaları ilə əməkdaşlıq etdiyini və çoxşaxəli əlaqələrin uğurlu nəticələr verdiyini bildirib.

## Azərbaycan Laosun sosial-iqtisadi inkişafına böyük töhfə verib

Prezident İlham Əliyev iyunun 19-da Laos Xalq Demokratik Respublikasının xarici işlər naziri Salımsay Kommasitin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. Dövlətimizin başçısı bu səfərin ölkələrimiz arasında əlaqələrin möhkəmləndirilməsi üçün qarşılıqlı marağın yaxşı göstəricisi olduğunu vurğulayıb. Bildirib ki, səfər zamanı qarşılıqlı maraq doğuran və əməkdaşlığımızın perspektivlərinin müəyyənləşdirilməsi ilə bağlı məsələlər müzakirə ediləcək.

Qəbul üçün minnətdarlığını ifadə edən qonaq qeyd edib ki, Laos ilə Azərbaycan arasında əlaqələrin uzunmüddətli tarixi var və bu əlaqələr hələ sovetlər birliyi dövründən başlayıb. Vurğulayıb ki, Azərbaycan Laos Xalq Demokratik Respublikasının sosial-iqtisadi inkişafına, o cümlədən kadr hazırlığı məsələsinə böyük töhfə verib. Regionun lider dövləti olan Azərbaycanda böyük uğurların əldə edildiyini bildirən qonaq ölkələrimiz arasında qarşılıqlı səfərlərin önəmini vurğulayıb.

## BU NÖMRƏMİZDƏ

VERGİ İNZİBATÇILIĞININ TƏKMİLLƏŞDİRİLMƏSİ VƏ ELEKTRONLAŞDIRILMA SƏVİYYƏSİNİN YÜKSƏLDİLMƏSİ VERGİ ÖDƏYİCİLƏRİNİN MARAQLARINA XİDMƏT EDİR 2

ŞƏFFAFLIĞIN TƏMİN EDİLMƏSİ VERGİ ORQANLARININ ƏN VACİB VƏZİFƏLƏRİNDƏNDİR 3

GƏLİR VƏ XƏRCLƏRİN UÇOTUNUN APARILMASI QAYDALARI TƏSDİQ EDİLİB 4

İNVESTİSİYALARIN CƏLB EDİLMƏSİ ÜÇÜN MÜHÜM TƏDBİRLƏR GÖRÜLÜR 5

# Vergi inzibatçılığının təkmilləşdirilməsi və elektronlaşdırılma səviyyəsinin yüksəldilməsi vergi ödəyicilərinin maraqlarına xidmət edir

**İyunun 16-da Vergilər Nazirliyi tərəfindən vergi inzibatçılığında tətbiq edilən ən son yeniliklərə həsr olunmuş təqdimat mərasimi keçirilib.**

Tədbirdə Vergilər Nazirliyinin, xarici dövlətlərin ölkəmizdəki səfirliklərinin nümayəndələri, vergi sahəsi üzrə mütəxəssislər və KİV nümayəndələri iştirak ediblər. ***Vergilər nazirinin müavini, 3-cü dərəcəli dövlət vergi xidməti müşaviri İlkin Vəliyev*** tədbiri giriş sözü ilə açaraq mərasim iştirakçılarına son illər vergi sistemində aparılan islahatlar, həyata keçirilən çevik vergi siyasəti barədə ətraflı məlumat verib. Bildirib ki, Azərbaycanda vergi inzibatçılığının rəqabət qabiliyyətliliyinə nail olunması üçün vergi xidmətində mütərəqqi beynəlxalq təcrübənin tətbiqi məsələləri daim diqqətdə saxlanılır. Ölkəmizdə əlverişli biznes mühitinin yaradılması işinin iştirakçısı olan vergi orqanları qarşısında vergi ödəyiciləri ilə konstruktiv dialoq qurmaq, yaranmış problemlərin aradan qaldırılmasına diqqətlə yanaşmaq, vergi məsələlərində və tətbiq olunan innovasiyalarda biznesə və vətəndaşlara yardım etmək vəzifəsi durur.

Qeyd olunub ki, vergi inzibatçılığının təkmilləşdirilməsi prosesi çərçivəsində atılan ən mühüm addımlardan biri də Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 4 avqust tarixli sərəncamına uyğun olaraq vergi sistemində bir sıra mühüm yeniliklərin edilməsidir. İ.Vəliyev əlavə edib ki, beynəlxalq vergitutma sahəsində son illər ərzində baş verən proses və tendensiyalar, o cümlədən xarici ölkələrin beynəlxalq müqavilələrin tətbiqi təcrübəsi nəzərə alınmaqla, bağlanmış müqavilələrin inzibatçılığının həm rezident, həm də qeyri-rezident şəxslərə münasibətdə asanlaşdırılması və mütərəqqi informasiya texnologiyalarından istifadə edilməsi yolu ilə elektronlaşdırılması nəzərdə tutulur. Bu məqsədlə Vergilər Nazirliyi tərəfindən «Azərbaycan Respublikası ilə digər dövlətlər arasında ikiqat vergitutmanın aradan qaldırılmasına dair beynəlxalq sazişlərin inzibatçılığı Qaydaları» yeni redaksiyada hazırlanıb və bu sənəddə elektron formada müraciət etmək imkanı və güzəştlərin əvvəlcədən tətbiq edilməsində gəlir növlərinin siyahısının genişləndirilməsi kimi yeniliklər nəzərdə tutulub.

Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 22 fevral tarixli «Rəqəmsal Ticarət Qovşağı kimi Azərbaycan Respublikasının mövqeyinin gücləndirilməsi və xarici ticarət əməliyyatlarının genişləndirilməsi ilə bağlı əlavə tədbirlər haqqında» fərmanına əsasən, xarici ölkələrlə elektron imza, o cümlədən «ASAN imza» sertifikatlarının qarşılıqlı tanınmasının təmin edilməsi istiqamətində mühüm işlər görülür. Bu yenilik ikiqat vergitutmanın aradan qaldırılması sazişlərinin formalarının xarici ölkə ərazilərində də elektron qaydada təsdiq edilməsinə imkan yaradacaq, elekton və «ASAN imza»dan daha rahat və geniş şəkildə istifadə edilməsi mümkün olacaqdır. Vergi sistemi üzrə aparılan kompleks islahatlar çərçivəsində vergi inzibatçılığının sadələşdirilməsinin davamı olaraq, xüsusi vergi rejimi tətbiq edilən vergi ödəyicilərinə münasibətdə ƏDV inzibatçılığının elektronlaşdırılması qarşıya hədəf kimi qoyulub. Bu məqsədlə ƏDV-dən sıfır faiz (0%) dərəcə ilə azadolma sertifikatının alınması üçün Vergilər Nazirliyinin İnternet Vergi İdarəsində «e-sertifikat» modulu yaradılıb.

### Mövcud vergi siyasəti sərmayə qoyuluşlarını təşviq edir

Tədbirdə «Xarici investisiyalar üçün əlverişli vergi mühiti» mövzusunda təqdimatla çıxış edən ***Vergi siyasəti və strateji araşdırmalar departamentinin baş direktoru Samirə Musayeva*** bildirib ki, ölkəmizə sərmayə qoyuluşlarının təşviq edilməsinə yönəldilmiş vergi siyasəti yeni iqtisadi şəraitdə mühüm rol oynamaqdadır. Xarici sərmayəçilərin səmərəli fəaliyyətini təmin etmək üçün, ilk növbədə, qanunvericiliyin təkmilləşdirilməsi sahəsində mühüm addımlar atılıb. Bu istiqamətdə Vergilər Nazirliyi tərəfindən sahibkarlıq subyektlərinin fəaliyyətinin «bir pəncərə» prinsipi üzrə təşkili sahibkarların vahid dövlət qeydiyyatının aparılmasına imkan verib. Nəticədə biznesə başlama ilə bağlı prosedurlar 15-dən 2-yə, sərf olunan vaxt 30 gündən 2 günə endirilib. Fərdi sahibkarların - 2011-ci ilin iyul ayından fiziki şəxslərin, 2012-ci ilin yanvar ayından isə yerli investisiyalı MMC-lərin elektron qeydiyyatına başlanması biznesin səmərəliliyini daha da artırıb. Bu istiqamətdə aparılan islahatlar nəticəsində Azərbaycan biznes qeydiyyatı üzrə ən qabaqcıl ölkələr sırasında yer alıb. «Doing Business 2017» hesabatına görə ölkəmiz «Biznesə başlama» indikatoru üzrə dünyada 5-ci, postsovet ölkələri arasında isə 1-ci yerdədir.

S.Musayeva Azərbaycanda fəaliyyət göstərən xarici investorlara yaradılan əlverişli vergi mühitinin bir istiqaməti kimi vergi güzəştinin və azadolmaların tətbiq edildiyini diqqətə çatdırıb. Bildirib ki, investisiyaların təşviqi və əlverişli biznes mühitinin formalaşdırılması məqsədilə son dövrlərdə Vergi Məcəlləsinə edilmiş əlavə və dəyişikliklər nəticəsində vergi güzəştlərinin və azadolmaların sayı artıb. Hazırda Vergi Məcəlləsində 104 azadolma və 25 güzəşt mövcuddur: «Azərbaycan hökumətinin son illər həyata keçirdiyi sənayeləşmə layihələri çərçivəsində yeni yaradılan sənaye zonalarına yerli və xarici sərmayəçilərin marağını artırmaq, investisiya qoyuluşlarını yüksəltmək məqsədilə güzəştli vergi siyasəti yürüdülür. Sənaye sektoruna xarici sərmayələrin cəlb olunması məqsədilə sənaye və texnologiyalar parklarının rezidentlərinə verilən vergi güzəştləri tətbiq olunub, rezidentlərin parklarda fəaliyyətdən əldə etdikləri gəlirlər 7 il müddətinə mənfəət (gəlir) vergisindən, bu fəaliyyətdə istifadə etdikləri əmlak və torpaqları həmin müddətə əmlak və torpaq vergilərindən azad olunublar. Müvafiq icra hakimiyyəti orqanının təsdiqedici sənədi əsasında idxal edilən texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı 7 il müddətinə (parkda qeydiyyata alındıqları ildən başlayaraq) ƏDV-dən azaddır. Vergi Məcəlləsinə edilmiş son dəyişikliklərə əsasən, Qaradağ Sənaye Parkında gəmiqayırma fəaliyyəti ilə məşğul olan sənaye rezidentləri müvafiq icra hakimiyyəti orqanının təsdiqedici sənədi əsasında həmin fəaliyyətin məqsədləri üçün bütün növ malların idxalı üzrə 5 il müddətinə ƏDV-dən azad olunub. Həmçinin, həmin sənaye parkında gəmiqayırma fəaliyyəti ilə məşğul olan rezidentə podratçı, podratçıya isə subpodratçı tərəfindən həmin fəaliyyətin məqsədləri üçün malların təqdim edilməsi, işlərin görülməsi və xidmətlərin göstərilməsi 2016-cı il mayın 1-dən 5 il müddətinə ƏDV-yə «0» dərəcə ilə cəlb olunur.

İnvestisiya mühitinin cəlbediciliyinin digər göstəricisi kimi investisiya təşviqi sənədinin tətbiqi ilə bağlı bildirilib ki, bu sənədə əsasən, vergi ödəyicilərinin əldə etdikləri gəlirin 50%-i 7 il müddətinə mənfəət (gəlir) vergisindən, müvafiq əmlakı və torpaq sahəsi həmin müddətə əmlak və torpaq vergilərindən azaddır. İnvestisiya təşviqi sənədi almış hüquqi şəxslər və fərdi sahibkarlar, eyni zamanda texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı 7 il müddətinə ƏDV-dən azaddırlar. Bununla yanaşı, qeyri-neft məhsullarının ixracının təşviqi ilə bağlı tədbirlərə uyğun olaraq, ixracla məşğul olan şəxslərə dövlət büdcəsinin vəsaiti hesabına ixrac təşviqi üzrə vəsait ödənilir. Ödənilən ixrac təşviqinin baza məbləği ixrac əməliyyatlarına görə faktiki ixrac olunmuş malın ixrac gömrük bəyannaməsində nəzərdə tutulan gömrük dəyərinin 3%-ni təşkil edir».

S.Musayeva Vergi Məcəlləsində nəzərdə tutulmuş digər stimullaşdırıcı tədbirlərin də investisiyalara mühüm təsir etdiyini vurğulayıb. Qeyd edib ki, 2016-cı il fevralın 1-dən 7 il müddətində yerli bank və xarici bankın Azərbaycan Respublikasında fəaliyyət göstərən filialı tərəfindən fiziki şəxslərin əmanəti üzrə ödənilən illik faiz gəlirləri, habelə emitent tərəfindən investisiya qiymətli kağızlar üzrə ödənilən dividend, diskont (istiqrazların nominalından aşağı yerləşdirilməsi nəticəsində yaranmış fərq) və faiz gəlirləri gəlir vergisindən azaddır: «Vergiyə cəlb edilən gəliri Azərbaycan mənbəyindən olan və bu gəlirindən ödəmə yerində vergi tutulmayan, Azərbaycan Respublikasında daimi nümayəndəliyi olmayan qeyri-rezidentlərin vergi öhdəlikləri onun təyin etdiyi vergi agenti vasitəsilə həyata keçirilir».




Bildirilib ki, sonuncu vergi islahatları ilə bağlı tədbirlərin mühüm istiqamətləri kimi kameral vergi yoxlamalarının həyata keçirilməsinin vergi bəyannamələrinin təqdim edildiyi gündən sonrakı 30 gün müddəti ilə məhdudlaşdırılması, vergi tutulan dövriyyəsinin azı 50%-i «0» dərəcə ilə vergiyə cəlb olunan vergi ödəyicisinə artıq ödənilmiş məbləğin 20 gün ərzində qaytarılması və pərakəndə ticarətdə vergi yükünün optimallaşdırılması iqtisadiyyata real təsir göstərən amillərdir: «2017-ci ildən vergi öhdəliklərinin əvvəlcədən müəyyən edilməsi, könüllü vergi açıqlaması sisteminin, «Outbound Call Centre» funksiyalarının, «Tax free» və elektron qaimə-faktura sisteminin tətbiqi, vergi orqanları tərəfindən keçirilən yoxlamaların optimallaşdırılması, elektron xidmətlərin əlçatanlığının təmin edilməsi və onların əhatə dairəsinin genişləndirilməsi həyata keçirilir ki, bu da vergi ödəyicilərinin səmərəli fəaliyyətinə geniş imkanlar yaradır. Bu gün Vergilər Nazirliyi tərəfindən vergi ödəyicilərinə 65 elektron xidmət göstərilir».

S.Musayeva Azərbaycan Prezidentinin sərəncamı ilə təsdiq edilmiş «Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə Strateji yol xəritələri»ndə nəzərdə tutulmuş vergi tədbirləri barədə də məlumat verib. Bildirib ki, Strateji yol xəritələrində xarici investisiyaların stimullaşdırılması ilə bağlı bir sıra hədəflər müəyyən edilib. Onların sırasında yaxşı idarəetmə və effektiv stimullar vasitəsilə birbaşa xarici investisiya strategiyasının həyata keçirilməsi, özəlləşdirmə və birbaşa xarici investisiya üçün uyğun investorların cəlb olunması, kiçik və orta sahibkarlıq subyektlərinin beynəlxalq ticarət əməliyyatları üçün maliyyə xidmətlərinin genişləndirilməsi və birbaşa xarici investisiyaların təşviqi, xarici investorların yerli maliyyə bazarına çıxış imkanlarının artırılması mühüm yer tutur. Bu tədbirlərin həyata keçirilməsi xarici investisiyaların həcminin artmasına səbəb olacaq.

## Azərbaycanda vergi inzibatçılığının rəqabət qabiliyyətliliyinə nail olunması üçün vergi xidmətində mütərəqqi beynəlxalq təcrübənin tətbiqi məsələləri daim diqqətdə saxlanılır



### Yeniliklər xarici investorların vergi və inzibati xərclərini azaldacaq

«Azərbaycan Respublikası ilə digər dövlətlər arasında ikiqat vergitutmanın aradan qaldırılmasına dair beynəlxalq sazişlərin inzibatçılığı qaydalarının sadələşdirilməsi» mövzusunda təqdimatla çıxış edən ***Vergilər Nazirliyinin Beynəlxalq əməkdaşlıq və maliyyə institutlarında vergi monitorinqi departamentinin Maliyyə institutlarında vergi monitorinqi idarəsinin əməkdaşı Emin Həsənov*** bildirib ki, respublikamız indiyədək 53 dövlətlə ikiqat vergitutmanın aradan qaldırılmasına dair saziş imzalayıb. Hazırda daha 8 dövlətlə sazişlərin imzalanması ilə bağlı danışıqlar davam etdirilir:



«İslahatlardan əvvəlki inzibatçılıq qaydalarına əsasən, ikiqat vergitutmanın aradan qaldırılması sazişləri üçün 6 ərizə forması tələb olunurdu, kağız daşıyıcısından istifadə edilirdi. Sənədlərin kağız formasında tərtibinə, ərizələrin doldurulmasına və digər işlərə vergi orqanı əməkdaşları xeyli vaxt sərf edirdilər. Bəzi hallarda təqdim olunan sənədlər səhv tərtib edilirdi ki, nəticədə vergi orqanı tərəfindən imtina yazılırdı. Ona görə də sənədlərin tərtibinin asanlaşdırılması ilə bağlı mühüm tədbirlər görüldü və ikiqat vergitutmanın aradan qaldırılması sazişləri elektronlaşdırıldı. Hazırkı yeniliklərə əsasən, sənəd formaları xeyli sadələşdirilib, sayı azaldılıb, elektron müraciət etmək imkanı yaradılıb və kağız dövriyyəsi minimuma endirilib. Bundan başqa, vergi ödəyiciləri üçün bütün gəlir növləri üzrə güzəştlərin əvvəlcədən tətbiq edilməsi və formanın təsdiqinin gəlir ödəyən şəxsə birbaşa onlayn göndərilməsi nəzərdə tutulub. İkiqat vergitutmanın aradan qaldırılması sazişləri ilə əlaqədar inzibatçılığın sadələşdirilməsindən sonra inzibati yük azalacaq, vergi orqanları tərəfindən müraciətlərə baxılması sürətləndiriləcək və səmərəlilik artacaq».

E.Həsənov qeyd edib ki, sazişlərlə bağlı Azərbaycan Respublikasının diplomatik nümayəndəlikləri və konsulluqları vasitəsilə qeyri-rezidentlərə elektron imza, o cümlədən «ASAN imza» sertifikatının verilməsi nəzərdə tutulur və həmin sertifikatların xarici ölkələrlə qarşılıqlı tanınması istiqamətində intensiv işlər aparılır. Bütün bunlar vergi ödəyicilərinin xərclərinin optimallaşdırılmasına və biznesin təşviqinə xidmət edir, xarici biznes tərəfdaşları arasında sənədlərin elektron formada tərtibi və imzalanmasına, digər dövlətlərlə elektron məlumat mübadiləsinə, transsərhəd elektron xidmətlərin həyata keçirilməsinə, xarici investorlar üzrə vergi və inzibati xərclərin azalmasına imkan verir.

Bildirilib ki, ikiqat vergitutmanın aradan qaldırılması sazişlərinin elektronlaşdırılması iqtisadiyyata investisiya qoyuluşlarının artmasına, xarici investorlar üzrə vergi və inzibati xərclərin azalmasına, vergi ödəyicilərinin layihə xərclərinin optimallaşdırılmasına və biznesin təşviqinə, xarici biznes tərəfdaşları arasında sənədlərin elektron formada tərtibinə və imzalanmasına, eləcə də digər dövlətlərlə elektron məlumat mübadiləsinə, transsərhəd elektron xidmətlərin həyata keçirilməsinə münbit şərait yaradacaq.

### Sertifikatlar elektron şəkildə təqdim olunacaq

***Vergilər Nazirliyinin Beynəlxalq əməkdaşlıq və maliyyə institutlarında vergi monitorinqi departamentinin Maliyyə institutlarında vergi monitorinqi idarəsinin direktoru Səfərəli Cavadov***un təqdimatı «Sıfır dərəcə ilə ƏDV üzrə elektron sertifikatların tətbiq edilməsi» mövzusuna həsr olunub. Bildirilib ki, son 3 il ərzində vergi orqanı tərəfindən 455 vergi ödəyicisinə 927 sertifikat təqdim edilib. Son yeniliyə əsasən, sertifikatlar elektron şəkildə təqdim olunacaq. Podratçı və subpodratçı şirkətlər üçün e-sertifikatın verilməsi onlardan «0» % dərəcəsi ilə ƏDV tutulmasına icazə verilməsi deməkdir və sertifikat bir növ təsdiq sənədi hesab ediləcək: «Elektron sertifikat malların (işlərin və xidmətlərin) təchizatçısı üçün saziş çərçivəsində həyata keçirilən fəaliyyət üzrə istifadə edilə bilər. Elektron sertifikatın tətbiqi həmin fəaliyyət üzrə prosesin sürətləndirilməsinə, vaxt itkisinin qarşısının alınmasına və uçotun asanlıqla təşkil edilməsinə şərait yaradacaq. Bu sahədə yeni elektron xidmətin istifadəyə verilməsi ƏDV bəyannaməsinin təkmilləşdirilməsinə imkan verəcək».

Tədbirdə mövzu ilə bağlı ətraflı müzakirələr aparılıb, iştirakçıların çoxsaylı sualları cavablandırılıb.

**Elbrus CƏFƏRLİ**

## ELAN

**Hörmətli vergi ödəyicisi!**

Fəaliyyətiniz zamanı vergi orqanı əməkdaşları tərəfindən korrupsiya və digər hüquqpozma hallarına yol verildiyi ilə rastlaşdıqda, aşağıdakı imkanlardan istifadə etməklə, vergi orqanına müraciət edə bilərsiniz:

* Vergilər Nazirliyinin rəsmi internet səhifəsində (www.taxes.gov.az) «Onlayn müraciətlər» bölməsinin «Vergi orqanı əməkdaşlarının fəaliyyətində korrupsiya və digər hüquqpozma halları barədə məlumat ver» alt bölməsinə;

* Vergilər Nazirliyinin poçt ünvanına və ya Daxili təhlükəsizlik departamentinə üzərində «MƏXFİ - Daxili təhlükəsizlik departamentinə» qeydi olan məktubları göndərməklə.
Ünvan: AZ1073, Bakı şəhəri, Landau küçəsi 16, Vergilər Nazirliyi;

* Daxili təhlükəsizlik departamentinə gəlməklə və məlumatı şəxsən (şəxsiyyətinizi təsdiq edən sənədlə) təqdim etməklə.
Ünvan: AZ1073, Bakı şəhəri, Landau küçəsi 16, Vergilər Nazirliyi, Daxili təhlükəsizlik departamenti;

* Vergilər Nazirliyinin Çağrı Mərkəzinə (195-1)

# Şəffaflığın təmin edilməsi vergi orqanlarının ən vacib vəzifələrindəndir



Vergilər Nazirliyinin
Vergi öhdəliklərinin icrasına
nəzarət departamentinin
baş direktoru,
baş vergi xidməti müşaviri
Zeynalabdin Məmmədzadə

Vergi ödəyiciləri ilə vergi orqanları arasında qarşılıqlı etimadın və şəffaflığın artırılması, sahibkarlara daha əlverişli şərait yaradılması və vergi inzibatçılığının təkmilləşdirilməsi məqsədilə Azərbaycan Respublikasının Vergi Məcəlləsində bir sıra dəyişikliklər edilmiş, vergi orqanlarında ciddi islahatlar aparılmışdır.

Vergi əməliyyatlarında şəffaflığın təmin edilməsi, ilk növbədə, vergi ödəyiciləri tərəfindən ciddi hesabat blankları tətbiq edilməklə malların alınıb-satılmasından, vergitutma məqsədləri üçün gəlirlərin və xərclərin uçotunun düzgün aparılmasından, yalnız əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə mindikdən sonra fiziki şəxslərin işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsindən başlayır. Vergi Məcəlləsinə əlavə edilmiş 16.1.11-6-cı maddəyə əsasən, sahibkarlıq fəaliyyətini həyata keçirən hüquqi və fiziki şəxslərə malların (işlərin, xidmətlərin) təqdim edilməsi ilə bağlı Vergi Məcəlləsində nəzərdə tutulmuş qaydada qaimə-faktura və ya elektron qaimə-faktura vermək vergi ödəyicilərinin vəzifələrinə aid edilmişdir. Qanunvericiliyə əsasən, vergi ödəyicisinin sahibliyində olan malların alışını təsdiq edən sənədlər (qaimə-faktura və ya elektron qaimə-faktura və ya elektron vergi hesab-faktura), həmin mallar idxal edilmişdirsə - idxal gömrük bəyannaməsi, vergi ödəyicisinin özü tərəfindən istehsal edilmişdirsə - Vergi Məcəlləsinin 130.1-1-ci maddəsi ilə müəyyən olunmuş qaydada tərtib edilən sənədlərdən ən azı biri olmalıdır.

Vergi Məcəlləsinin 16.1.3-cü maddəsinə əsasən, qanunvericiliklə nəzərdə tutulmuş qaydada gəlirlərin (xərclərin) və vergitutma obyektlərinin uçotunu aparmaq vergi ödəyicisinin vəzifələrinə aid edilmişdir. Bununla bağlı Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 19 aprel tarixli fərmanı ilə ictimai iaşə fəaliyyəti və pərakəndə ticarət fəaliyyəti sahələrində, 2017-ci il 16 iyun tarixli fərmanı ilə istehsal fəaliyyəti və topdansatış ticarət fəaliyyəti sahələrində vergitutma məqsədləri üçün gəlirlərin və xərclərin uçotunun aparılması qaydaları təsdiq olunmuşdur. Qaydaların hazırlanmasında məqsəd vergi ödəyicilərinin gəlirlərinin və xərclərinin müəyyən edilməsi ilə bağlı malların mədaxili və məxarici prosedurlarının müəyyən edilməsindən, eləcə də vergi ödəyicilərinə məxsus malların təsərrüfatdaxili hərəkətinin sənədləşdirilməsini, bu sahədə şəffaflığın, uçot və hesabatlılığın artırılmasını təmin etməkdən ibarətdir.

Vergi Məcəlləsində aparılmış sonuncu dəyişikliklər nəticəsində malların qaimə-faktura və ya elektron qaimə-faktura və ya elektron vergi hesab-fakturası əsasında alınmasına nəzarət edilməsi operativ vergi nəzarəti tədbirlərinin əhatə dairəsinə daxil edilmişdir. Aparılmış nəzarət tədbirləri zamanı malların alışını təsdiq edən Vergi Məcəlləsinin 58.8-ci maddəsində nəzərdə tutulan sənədlərdən ən azı biri olmadıqda - alıcıya təqvim ili ərzində belə hala birinci dəfə yol verdikdə alınmış malların 10 faizi, ikinci dəfə yol verdikdə 20 faizi, üç və daha çox dəfə yol verdikdə 40 faizi miqdarında maliyyə sanksiyası tətbiq edilir. Əlavə olaraq, pul vəsaitinin 1000 manatdan çox olan məbləğdə uçotdan gizlədilməsinə və ya uçota alınmamasına görə - 1000 manatdan çox olan hissəsinin 5 faizi, il ərzində belə hala təkrar yol verdikdə 1000 manatdan çox olan hissəsinin 10 faizi miqdarında maliyyə sanksiyası tətbiq edilir.




Azərbaycan Respublikası ərazisində mülki dövriyyənin iştirakçıları arasında aparılan əməliyyatların və hesablaşmaların şəffaflığını, istehlakçıların hüquqlarının müdafiəsini, gəlirlərin və xərclərin uçotuna nəzarəti tam şəkildə təmin etmək, nağd pul hesablaşmalarının nağdsız hesablaşmalarla əvəzlənməsini stimullaşdırmaq, bank sisteminin inkişafını sürətləndirmək məqsədilə «Nağdsız hesablaşmalar haqqında» Azərbaycan Respublikasının 16 dekabr 2016-cı il tarixli Qanunu təsdiq edilmişdir. Bu qanunun tələblərinin pozulmasına görə Vergi Məcəlləsinin 58.7-1-ci maddəsi ilə müəyyən edilmiş şəxslərə qanun pozulmaqla aparılan əməliyyatın ümumi məbləğinin təqvim ili ərzində belə hala birinci dəfə yol verdikdə 10 faizi, ikinci dəfə yol verdikdə 20 faizi, üç və daha çox dəfə yol verdikdə 40 faizi miqdarında maliyyə sanksiyası tətbiq edilir.

«Azərbaycan Respublikasında əmək münasibətlərinin tənzimlənməsinin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında» Azərbaycan Respublikasının Prezidenti tərəfindən 17 mart 2017-ci il tarixində sərəncam imzalanaraq, Əmək Münasibətlərinin Tənzimlənməsi və Koordinasiyası Komissiyası yaradılmışdır. Həmin sərəncamla komissiyaya və aidiyyəti dövlət orqanlarına bir sıra ciddi tapşırıqlar verilmişdir. Bu istiqamətdə görülən işlərin davamı olaraq, dövlət başçısı tərəfindən «Tikinti sahəsində qeyri-rəsmi əmək münasibətlərinin qarşısının alınması ilə bağlı nəzarətin gücləndirilməsinə dair tədbirlər haqqında» 28 aprel 2017-ci il tarixdə müvafiq fərman imzalanaraq Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin tərkibində Əmək Münasibətlərinin Monitorinqi Mərkəzi yaradılmış, həm Mərkəzə, həm də aidiyyəti dövlət orqanlarına, eləcə də Vergilər Nazirliyinə ciddi tapşırıqlar verilmişdir.

Vergi ödəyicilərinin məlumatlandırılması və maarifləndirilməsi məqsədilə qanunvericilikdə baş vermiş ən son yeniliklər barəsində vergi ödəyicilərinə mütəmadi olaraq bildiriş və SMS-lər göndərilir, edilmiş dəyişikliklərin mahiyyəti keçirilən görüşlərdə və eləcə də KİV-lərdə ətraflı şəkildə izah edilir. Bu tədbirlər öz nəticəsini vermədikdə və qanunvericiliyin pozulması halları davam etdikdə, həmin vergi ödəyiciləri vergidən yayınma nöqteyi-nəzərindən riskli vergi ödəyiciləri hesab edilərək, onlarda Vergi Məcəlləsinin 50-ci maddəsinə əsasən vergi nəzarəti tədbirləri həyata keçirilir.

Pul vəsaitinin uçotdan gizlədilməsi və ya uçota alınmaması hallarına və malların Vergi Məcəlləsi ilə müəyyən edilən qaimə-faktura və ya elektron qaimə-faktura və ya elektron vergi hesab-fakturası əsasında alınmasına nəzarət məqsədilə 2017-ci ilin yanvar-may ayları ərzində vergi nəzarəti tədbiri keçirilmiş 1042 obyektdən 942-də pozuntu faktları aşkar edilmiş, 32 milyon 936,1 min manat həcmində uçotdan gizlədilmiş pul vəsaiti, 41 milyon 99 min manat məbləğində uçotdan gizlədilmiş mallar aşkar edilərək həmin vergi ödəyicilərinə ümumilikdə 5 milyon 454,6 min manat məbləğində maliyyə sanksiyası tətbiq edilmişdir.

Nağdsız hesablaşmaların həyata keçirilməsi ilə bağlı qanunla müəyyən olunmuş tələblərə əməl olunması üzrə hesabat dövründə 55 obyektdə keçirilmiş vergi nəzarəti tədbirləri nəticəsində 31 obyektdə qanunvericiliyin tələblərinin pozulması faktları aşkar edilərək, pozuntuya yol vermiş vergi ödəyicilərinə 119,9 min manat məbləğində maliyyə sanksiyası tətbiq edilmişdir.

Qeyri-rəsmi məşğulluq və vergidən yayınma hallarının qarşısının alınması məqsədilə Azərbaycan Respublikasının Əmək Məcəlləsində nəzərdə tutulmuş qaydada əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən işəgötürən tərəfindən fiziki şəxslərin işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsi hallarının aşkar olunması istiqamətində vergi orqanları tərəfindən cari ilin yanvar-may ayları ərzində 555 obyektdə aparılmış vergi nəzarəti tədbirləri nəticəsində 329 obyekt üzrə 1987 nəfər şəxsin müvafiq qaydada rəsmiləşdirilmədən işlərin yerinə yetirilməsinə cəlb edildiyi aşkar olunmuşdur. Nəzarət tədbirlərinin nəticələrinə görə, qanun pozuntusuna yol vermiş şəxslər barəsində 1 milyon 735 min manat məbləğində maliyyə sanksiyası tətbiq edilmişdir.

**Vergi ödəyiciləri bilməlidirlər ki, vergi əməliyyatlarında şəffaflığın təmin edilməsi qısamüddətli bir kampaniya deyil, ölkə iqtisadiyyatının davamlı inkişafının əsas şərtlərindən biridir və bu məsələ daim vergi orqanlarının diqqət mərkəzində saxlanılacaq, uçotdan kənar əməliyyatların qarşısını almaq üçün ən ciddi tədbirlər görüləcəkdir**

# Transfer qiymətləri mövzusunda təlim

Vergilər Nazirliyi tərəfindən 1 ilə yaxındır transfer qiymətləndirməsi sahəsində islahatlar aparılır. Bu sahədə müvafiq təhlillər aparılmış və «Transfer qiymətlərinin müəyyən edilməsi və tətbiqi» qaydaları təsdiq edilmişdir.

Aparılan islahatların bir hissəsi olaraq, 19-20 iyun tarixlərində Vergilər Nazirliyinin inzibati binasında təşkil olunmuş təlimdə 50-yə yaxın vergi orqanı əməkdaşı iştirak etmişdir. Təlim «Thomson Reuters» informasiya sisteminin istifadə qaydalarına həsr olunmuşdur.



İştirakçıların nəzərinə çatdırılmışdır ki, transfer qiymətinin tətbiq edilməsinin əsas məqsədi vergi ödəyicisi tərəfindən nəzarət olunan əməliyyatlar çərçivəsində təqdim edilən və ya alınan malların qiymətləri, müqayisə edilən nəzarət olunmayan əməliyyatlar üzrə qiymətlərə uyğun olmadığı halda, həmin əməliyyat üzrə verginin vergi ödəyicisi və vergi orqanı tərəfindən transfer qiymətləri əsas götürülməklə yenidən hesablanmasıdır. Transfer qiyməti ümumi dəyəri 500 min manatdan artıq olan əməliyyatlara tətbiq edilir. Bundan əlavə, transfer qiymətləndirməsi ilə bağlı nəzarət olunan əməliyyatlar barədə arayış da artıq təsdiq edilmişdir. Vergi ödəyiciləri Vergi Məcəlləsində nəzərdə tutulmuş müddətlərdə transfer qiymətləndirməsi qaydalarına əməl etməklə həmin arayışı doldurub vergi orqanına təhvil verməlidir.

Transfer qiymətləndirməyə dair qanunvericilik dünyanın inkişaf etmiş ölkələrinin, demək olar ki, hamısında mövcuddur. Azərbaycanda isə yeni olduğu üçün dünya ölkələrinin qabaqcıl təcrübəsi öyrənilmiş, bu məqsədlə səfərlər təşkil edilmiş, eləcə də Avropa İttifaqının Tvinninq layihəsi çərçivəsində əməkdaşlığa başlanılmışdır. Bu ildən etibarən tərəfdaş ölkələrlə Tvinninq müqaviləsinin imzalanması planlaşdırılır.

Dünyada transfer qiymətləndirməsi sahəsində fəaliyyət göstərən bir neçə tanınmış şirkət olsada, Vergilər Nazirliyi «Thomson Reuters» şirkəti ilə əməkdaşlıq etməyə üstünlük vermişdir. Bu şirkətlə bağlanmış üçillik müqavilə bir sıra əsas baza moduluna giriş imkanı yaradır və bu bazadan istifadə etməklə mövcud metodlar əsasında qiymətləri müqayisə etmək mümkündür. Bu bazalardan istifadə edən ölkələr, qiymətlərdə kənarlaşmanı aşkar etməklə, xeyli vəsaiti büdcələrinə qaytara bilirlər.

Xərclərin süni şəkildə artırılması hallarının qarşısının alınması məqsədilə Vergi Məcəlləsinə edilmiş əlavə və dəyişikliklərin məqsədi bir-biri ilə qarşılıqlı əlaqəli şəxslər tərəfindən aparılan əməliyyatların bazar qiymətləri prinsipinə uyğun aparılmasına nəzarət etmək və bu əməliyyatlar nəticəsində vergitutma bazasının azaldılmasının qarşısını almaqdır.

«Thomson Reuters» şirkətinin regional nümayəndəsi, təlimçi İvan Kolpaşnikov təlimlərə başlamazdan əvvəl iştirakçılara şirkət barədə məlumat verərək bildirmişdir ki, dünyanın 100-dən çox ölkəsində fəaliyyət göstərən şirkətdə 60 min insan çalışır və maliyyə bazarları, vergi, mühasibat, hüquq və media sahələrində xidmətlər təklif edir.

Təlimin birinci günündə dinləyicilərə transfer qiymətləndirməsinə nəzarətlə bağlı kütləvi informasiya sistemləri, şirkət rentabelliyinin təhlilinə əsaslanan metodlar, «Onesource benchmark» verilənlər bazası, mülkiyyətin strukturunun təhlili, xarici dövlətlərin reyestrləri ilə iş, beynəlxalq vergi qanunvericiliyinin təhlili üçün «Checkpoint World» informasiya sistemi və s. barədə ətraflı məlumat verilmişdir. İştirakçılar informasiya sistemindən istifadə etməklə transfer qiymətinin müəyyən olunması məqsədilə müqayisə edilən əməliyyatlar seçmiş və praktiki məşğələlər aparmışlar. Təlim zamanı «Eikon informasiya-analitik terminalı», maliyyə bazarlarının təhlili, borc bazarları, kredit reytinqinin hesablanması, müqayisə edilə bilən bazar qiymətləri metodu və digər mövzularda iştirakçılar məlumatlandırılmışlar. Bundan başqa, beynəlxalq təcrübədə istifadə olunan transfer qiymətləndirməsinin müəyyən edilməsi üsulları haqqında fikir mübadiləsi aparılmışdır. Təlimin sonunda dinləyicilərə sertifikatlar təqdim edilmişdir.

**Aytən NƏBİYEVA**

# «ASAN» İnnovasiyalar Mərkəzi və «MasterCard» birgə layihəyə başlayırlar

«MasterCard» beynəlxalq ödəniş şirkəti Azərbaycanda nağdsız ödənişlərin inkişafına töhfə vermək məqsədilə «Nağdsız Azərbaycan» layihəsi çərçivəsində daha bir yeniliyə imza atıb. «ASAN» İnnovasiyalar Mərkəzi ilə birgə əməkdaşlığa əsasən, yaxın günlərdə nağdsız ödənişlərin təbliği və təşviqini nəzərdə tutan layihənin icrasına başlanılacaq. «MasterCard» şirkətinin Azərbaycan üzrə ölkə meneceri Alper Meriç bildirib ki, nağdsız ödənişlər bazarının inkişaf etdirilməsində hökumətin və maliyyə iştirakçılarının gördüyü işlərlə yanaşı, vətəndaşların bu sahədə maliyyə biliklərinin artırılmasına ehtiyac var. İnsanların kart ödənişləri haqqında lazımi biliklərinin olmaması nağd pul üzərində qurulmuş iqtisadiyyatın üstünlüyünə təkan verir. Bu məsələyə həssaslıq nümayiş etdirən «MasterCard» dövlət-özəl sektor-vətəndaş arasında maliyyə inteqrasiyasının gücləndirilməsini vacib sayır.

A.Meric qeyd edib ki, «ASAN» İnnovasiyalar Mərkəzi ictimai sektorda elektron ödənişlərin inkişafı üçün çalışan ən qabaqcıl qurumlardan biridir. Bu baxımdan həmin qurumun seçilməsi təsadüfi deyil, mərkəzlə birgə həyata keçiriləcək layihə nağdsız cəmiyyətin təşviqi, ictimai və özəl tərəfdaşlıqlar vasitəsilə rəqəmsal ödəniş texnologiyalarının tətbiqi və bununla da maliyyə savadlılığının yüksəldilməsinə töhfə vermək məqsədi daşıyır.

Qeyd edilib ki, 2017-ci ildə ölkəmizdə nağdsız ödənişlərin inkişafı sahəsində banklarla əməkdaşlığın yeni istiqamətləri də müəyyən olunacaq. Şirkətin hazırladığı nağdsız ödənişlərə dair yol xəritəsinə əsasən, Azərbaycanda nağdsız hesablaşmaların artırılması sahəsində elektron ödəniş infrastrukturunun inkişaf etdirilməsi, əhatə dairəsinin və nağdsız ödənişlərdə innovativ texnologiyaların tətbiqinin genişləndirilməsi, elektron ödəniş xidmətlərinin institusional bazasının gücləndirilməsi, əhali və iqtisadi subyektlərin elektron ödəniş xidmətlərindən istifadəyə cəlb edilməsi nəzərdə tutulur. Hazırda Azərbaycanda nağd ödənişlərin səviyyəsi 80%-dən çoxdur. Ölkə nağdsız ödəmələrin inkişafı üçün böyük potensiala malik olduğuna görə rəqəmsal və nağdsız ödənişlərin tətbiqi üzrə ən son texnologiyalar təkcə iri şəhərlərdə deyil, bölgələrdə də geniş yayılmalıdır.

«MasterCard»ın meneceri Azərbaycanda rəqəmsal texnologiyaların ən innovativ çeşidlərindən biri olan «Apple Pay» nağdsız ödəniş sisteminin tətbiqinə hazırlaşdıqlarını bildirib. Bununla bağlı mobil operatorlar və «Apple Pay»ın nümayəndələri ilə məsləhətləşmələrin aparılması planlaşdırılır.

## Elektron qaimə-fakturanın tətbiqi barədə BİLDİRİŞ

**Hörmətli vergi ödəyiciləri!**

Sahibkarlıq fəaliyyətini həyata keçirən hüquqi və fiziki şəxslərə malların (işlərin, xidmətlərin) təqdim edilməsi zamanı elektron qaimə-fakturanın verilməsi vergi ödəyicilərinin vəzifələrinə aid edilmişdir.

Mövcud qanunvericiliyə əsasən sahibkarlıq fəaliyyəti məqsədləri üçün malların (işlərin, xidmətlərin) təqdim edilməsi zamanı

• **ƏDV-nin məqsədləri üçün qeydiyyata alınmış və vergi tutulan əməliyyatlarının həcmi ardıcıl 12 aylıq dövrün istənilən ayında (aylarında) 200.000 manatdan artıq olan ticarət və (və ya) ictimai iaşə fəaliyyəti ilə məşğul olan** vergi ödəyiciləri tərəfindən **2017-ci il 1 aprel tarixindən;**

• **bütün digər vergi ödəyiciləri** tərəfindən **2018-ci il 1 yanvar tarixindən etibarən** elektron qaimə-faktura təqdim edilməlidir.

Elektron qaimə-fakturanın tətbiqi, uçotu və istifadəsi Qaydaları Azərbaycan Respublikası Nazirlər Kabinetinin 14.03.2017-ci il tarixli 89 nömrəli Qərarı ilə müəyyən edilir.

Elektron qaimə-faktura **«Onlayn rejimdə»** Vergilər Nazirliyinin İnternet Vergi İdarəsində (www.e-taxes.gov.az) gücləndirilmiş elektron imza (o cümlədən Asan İmza) vasitəsilə elektron qaydada tərtib edilərək və ya «Lazımi proqramlar»dan istifadə edilməklə **«Oflayn rejimdə»** tərtib edildikdən və elektron imza (o cümlədən Asan İmza) vasitəsilə imzalandıqdan sonra alıcıya göndərilir.

Vergi ödəyicisinin sahibliyində olan malların alışını təsdiq edən qaimə-faktura və ya elektron qaimə-faktura və ya elektron vergi hesab-fakturadan ən azı biri olmadıqda isə alıcıya təqvim ili ərzində belə hala

• birinci dəfə yol verdikdə alınmış malların **10 faizi**,

• ikinci dəfə yol verdikdə **20 faizi**,

• üç və daha çox dəfə yol verdikdə isə **40 faizi miqdarında** maliyyə sanksiyası tətbiq edilir.

Odur ki, qanunvericiliklə nəzərdə tutulmuş hallarda qeyd edilmiş müddətdən etibarən elektron qaimə-fakturanın tətbiqinə başlanılmalıdır. Fəaliyyətinizlə bağlı risklərin yaranmaması, hər hansı maliyyə itkilərinə məruz qalmamağınız üçün mövcud qanunvericiliyin tələblərinə əməl etməyiniz tövsiyə olunur.

Vergi qanunvericiliyinin tətbiqi və inzibatçılığı ilə bağlı əlavə məlumat almaq üçün Vergilər Nazirliyinin rəsmi internet saytına (www.taxes.gov.az), Çağrı Mərkəzinə (195-1) və vergi ödəyicilərinə xidmət mərkəzlərinə müraciət edə bilərsiniz.

Azərbaycan Respublikası Vergilər Nazirliyi

Vergi ödəyicisinin sualı var...



Samirə Musayeva
Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar departamentinin baş direktoru vergi ödəyicilərinin suallarına cavab verir

## ƏDV məbləğinin əvəzləşdirilməsi

***Kənd təsərrüfatı məhsullarının istehsalı ilə məşğul olan şəxslər tərəfindən həmin fəaliyyət üzrə digər şəxslərdən alınmış mallara (işlərə, xidmətlərə) görə ödənilmiş ƏDV-nin məbləği əvəzləşdirilirmi?***

Vergi Məcəlləsinin 164.1.18-ci maddəsinə əsasən, kənd təsərrüfatı məhsullarının istehsalçıları (o cümlədən sənaye üsulu ilə) tərəfindən özlərinin istehsal etdikləri kənd təsərrüfatı məhsullarının satışı üzrə dövriyyələr 2014-cü il yanvarın 1-dən 5 il müddətinə ƏDV-dən azaddır.

Vergi Məcəlləsinin 175.6-cı maddəsinin müddəalarına görə, ƏDV-dən azad olunan, yaxud ƏDV-yə cəlb edilməyən əməliyyatlar aparan şəxslər tərəfindən mallar (işlər, xidmətlər) alınarkən bu maddə ilə müəyyən edilmiş qaydada ödənilmiş ƏDV məbləği əvəzləşdirilmir.

**Qeyd olunanlara əsasən:**
Kənd təsərrüfatı məhsullarının istehsalçıları (o cümlədən sənaye üsulu ilə) tərəfindən kənd təsərrüfatı məhsullarının istehsalı ilə bağlı digər şəxslərdən alınmış mallara (işlərə, xidmətlərə) görə ödənilmiş ƏDV məbləğləri əvəzləşdirilmir.

Suallarınızı redaksiyamızın ünvanına: AZ 1073, Bakı ş., Landau küç., 16 və ya **s.musayeva@taxes.gov.az** elektron poçt ünvanına göndərə bilərsiniz

# Gəlir və xərclərin uçotunun aparılması qaydaları təsdiq edilib

Azərbaycan Prezidenti İlham Əliyevin fərmanı ilə «Topdansatış ticarət fəaliyyəti sahəsində vergitutma məqsədləri üçün gəlirlərin və xərclərin uçotunun aparılması Qaydası» və «İstehsal fəaliyyəti sahəsində vergitutma məqsədləri üçün gəlirlərin və xərclərin uçotunun aparılması Qaydası» təsdiq edilib.

Bu ilin iyul ayının 15-dən qüvvəyə minəcək qaydalardan irəli gələn yeniliklərlə bağlı iqtisadçı ekspert, «Value and Sources Konsaltinq» şirkətinin rəhbəri Rəşad Əliyevin münasibətini öyrəndik:

**- Qaydalara görə tətbiq edilən yeni ciddi hesabat blanklarına aiddir: «Malların təhvil-qəbul aktı»; «Malların alış aktı»; «Malların təsərrüfatdaxili yerdəyişməsi qaimə-fakturası»; «Yük avtonəqliyyatı üçün yol vərəqi»; «Malların qaytarılması aktı»; «İtmiş, əskik gəlmiş, xarab və ya zay olmuş və oğurlanmış mallar barədə akt»; «Fövqəladə hallarda malların itməsi, əskik gəlməsi, xarab və ya zay olması barədə akt».**

Bu sənədlər mahiyyətcə əvvəllər də müəssisələrdə istifadə olunur, sərbəst formada və dizaynda tərtib edilsə də, bəzilərinin tərtibi bütün hallarda məcburi hesab olunmurdu. Vəkalətnamə və qaimə-fakturalar isə ciddi hesabat blankı hesab edilirdi. Bundan sonra topdansatış ticarətlə məşğul olan vergi ödəyiciləri aldıqları malların anbara girişini «Malların təhvil-qəbul aktı» ilə sənədləşdirəcəklər. Mallar ƏDV ödəyicisi olan şəxsdən alındıqda satıcıdan qaimə-faktura və ya elektron qaimə-faktura ilə yanaşı, elektron vergi hesab-fakturasının da verilməsi tələb edilir. Mallar ƏDV ödəyicisi olmayan vergi ödəyicisindən alındıqda satıcıdan Vergi Məcəlləsi ilə müəyyən edilmiş qaimə-faktura və ya elektron qaimə-faktura tələb olunur. Mallar vergi orqanında uçotda olmayan şəxslərdən alındıqda isə «Malların alış aktı» tərtib edilir. «Malların alış aktı»nda satıcının şəxsiyyətini təsdiq edən sənədin məlumatlarının (FİN, seriyası və nömrəsi) göstərilməsi mütləqdir.

Topdansatış ticarət sahəsində fəaliyyət göstərən vergi ödəyicisinə məxsus malların təsərrüfatdaxili (bir anbardan digər anbara, bir ticarət obyektindən digər ticarət obyektinə) hərəkəti «Malların təsərrüfatdaxili yerdəyişməsi qaimə-fakturası» ilə sənədləşdiriləcək.

Vergi ödəyicisinə məxsus anbarlar və ya təsərrüfat subyektləri (obyektlər) topdansatış ticarət fəaliyyəti həyata keçirilən təsərrüfat subyektinin (obyektin) hüdudlarından kənarda yerləşdikdə və malların daşınması nəqliyyat vasitəsilə həyata keçirildikdə, həmin nəqliyyat vasitəsinə, əlavə olaraq, «Yük avtonəqliyyatı üçün yol vərəqəsi» verilir.

«Topdansatış ticarət sahəsində fəaliyyət göstərən vergi ödəyicisinin mədaxil etdiyi mallar, həmin malların alğı-satqısına dair müqaviləyə uyğun olaraq, yararlılıq müddətinin bitməsinə və ya digər səbəblərə görə geri qaytarıldıqda, tərəflər arasında «Malların qaytarılması aktı» tərtib edilir.



Topdansatış ticarət sahəsində fəaliyyət göstərən şəxslər komissiyaya və ya məsuliyyətli mühafizəyə qəbul edilmiş malları «Malların təhvil-qəbul aktı» ilə sənədləşdirir və həmin sənədlərdə göstərilən qiymətlərlə uçota alırlar. Malların komissiyaya qəbul edilməsi ilə bağlı tərəflər arasında müqavilə bağlanır. Malların anbara mədaxilinin uçotu məsul şəxslər, malların adları (növləri, partiyaları və s.), miqdarı və ya digər kəmiyyət göstəriciləri və saxlanma yerləri üzrə aparılır.

Vergi ödəyicisi topdansatış ticarətlə yanaşı, digər fəaliyyət növləri həyata keçirdikdə, alınmış malları təyinatına uyğun olaraq ayrıca uçota almalıdır. Bu zaman həmin mallar «anbarda olan mallar», «topdansatış ticarətdə olan mallar», «dolu və boş taralar», «satın alınan məmulatlar», «kirayə (yolda olan) mallar» və digər təyinatlar üzrə mədaxil edilir.

Malların satışının təşkilinə dair tələblərlə bağlı yenilik bundan ibarətdir ki, topdansatış ticarət sahəsində fəaliyyət göstərən təsərrüfat subyektlərində (obyektlərdə) malların təqdim edilməsi (satışı) Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş qaimə-faktura və ya elektron qaimə-faktura, yaxud elektron vergi hesab-fakturası tərtib edilməklə həyata keçirilir. Malların dəyəri nağdsız qaydada (POS-terminal vasitəsilə) ödənildikdə, alıcıya (vergi ödəyicisinə) qaimə-faktura və ya elektron qaimə-faktura, yaxud elektron vergi hesab-fakturası ilə yanaşı, POS-terminaldan çıxarış verilir.

Vergi ödəyicisinin təsərrüfat subyektində (obyektdə) mallar pərakəndə və topdansatış qaydasında təqdim edildikdə, bu fəaliyyətlər üzrə malların mədaxilinin və məxaricinin (satışının) uçotu ayrılıqda aparılır. İtən, əskik gələn və xarab olan malların uçotuna dair tələblər bundan ibarətdir ki, idxal mallarının və təhtəlhesab şəxsin aldığı malların anbara təhvil verilməsi, habelə topdansatış ticarət fəaliyyətində malların itməsi, əskik gəlməsi, xarab olması, zay olması və oğurlanması «İtmiş, əskik gəlmiş, xarab və ya zay olmuş və oğurlanmış mallar barədə akt»la sənədləşdirilir. Həmin akt vergi ödəyicisinin (və ya onun səlahiyyətli nümayəndəsinin), məsul şəxsin və malları anbara təhvil verən şəxsin imzaları ilə təsdiqlənir.

Topdansatış ticarət sahəsində fəaliyyət göstərən təsərrüfat subyektlərində (obyektlərdə) malların təqdim edilməsi (satışı) Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş qaimə-faktura və ya elektron qaimə-faktura, yaxud elektron vergi hesab-fakturası tərtib edilməklə həyata keçirilir

Malların itməsi, əskik gəlməsi, xarab və ya zay olması fövqəladə hal nəticəsində baş verdikdə, aidiyyəti dövlət orqanlarının verdikləri arayışlar əsasında həmin mallar məsul şəxslərin hesabından silinə bilər. Bu zaman «Fövqəladə hallarda malların itməsi, əskik gəlməsi, xarab və ya zay olması barədə akt» tərtib olunur».

***Millət vəkili Azər Badamovun sözlərinə görə,*** yeni qaydalar topdansatış və istehsal sahələrində sahibkarlıq fəaliyyəti ilə məşğul olan subyektlərin vergi-maliyyə və uçot sənədləşdirmələrində şəffaflığın təmin edilməsinə, vergidən yayınma hallarının aradan qalxmasına, topdansatış və istehsal fəaliyyəti sahələrində uçot-hesabat və əmək münasibətlərinin tənzimlənməsinə gətirib çıxaracaqdır: «Fərmanda əsas anlayışların açıqlama və izahının aydın şəkildə verilməsi ilə malların istehsal prosesinə daxil olması, topdansatışı zamanı son əməliyyata qədər alış, yerdəyişmə, silinmə və satış proseslərində lazım olan tələblərin həyata keçirilməsi və vergi uçotunun aparılması üçün tələb olunan sənədlər qeyd olunmuşdur».

A.Badamov vurğulamışdır ki, yeni qaydalar ölkədə haqsız rəqabətin aradan qalxmasına, kiçik və orta sahibkarlığın inkişafına xidmət edəcəkdir. Qaydaların qüvvəyə minməsi topdansatış və istehsalla məşğul olan sahibkarlıq subyektlərinin fəaliyyətinin pərakəndə ticarət şəbəkəsinə təsirini aradan qaldıracaq və istehsal-satış proseslərində vergi-uçot sənədləşmələrinin aparılması işini asanlaşdıracaqdır. Fərmanın tələblərinə uyğun olaraq, sahibkarlar öz gəlir və xərclərini aydın şəkildə müəyyən edə biləcək və dövlət büdcəsinə hesablanacaq vergilərin uçotunun aparılmasında qarşıya çıxan çətinliklər aradan götürüləcəkdir.

**Fəxriyyə İKRAMQIZI**

# Naxçıvanda AİZ yaradılacaq

Türkiyə hökuməti Naxçıvanda azad ticarət zonası (AİZ) yaratmağı nəzərdən keçirir. Qardaş ölkənin iqtisadiyyat naziri Nihat Zeybəkçi bildirib ki, mütəxəssislərdən ibarət nümayəndə heyəti Naxçıvanda olub, layihənin texniki və iqtisadi tərəfləri barədə müzakirələr aparılıb.

Bu layihənin reallaşması üçün hələ bir neçə il əvvəl Azərbaycan-Türkiyə Biznes Şurasının iclasında təşəbbüslər irəli sürülüb. Məqsəd türkiyəli iş adamlarının Naxçıvanla iqtisadi bağlantılarını daha da möhkəmləndirməkdir. Türkiyənin azad ticarət zonaları üzrə baş direktorluğu bu məsələni yenidən gündəmə gətirib və Azərbaycan İqtisadiyyat Nazirliyi ideyanı dəstəkləyib. N.Zeybəkçi qeyd edib ki, Naxçıvanda azad ticarət zonasının yaradılması üçün lazımi infrastrukturun və logistika xidmətlərinin olması layihənin yaxın vaxtlarda gerçəkləşməsinə zəmin yaradır.

İqtisadçı Qalib Bayramovun sözlərinə görə, azad ticarət zonasının yaradılmasında məqsəd iqtisadiyyatın davamlı inkişafı və rəqabət qabiliyyətinin artırılması, Azərbaycanın logistika və nəqliyyat mərkəzi kimi mövqeyinin gücləndirilməsi və ölkədə çoxşaxəli nəqliyyat infrastrukturunun formalaşdırılmasıdır. Azərbaycan hökuməti bu cür iqtisadi vasitələrlə sahibkarlığın və iqtisadiyyatın inkişafını sürətləndirmək niyyətindədir. Bu tipli layihələr ölkəyə xarici valyuta axını və dövlət büdcəsinə əlavə vəsaitlərin daxil olması baxımından mühüm əhəmiyyət daşıyır. Artıq Qaradağ rayonunun Ələt qəsəbəsində yeni Bakı Beynəlxalq Dəniz Ticarət Limanının ərazisi daxil olmaqla ilk azad ticarət zonası tipli xüsusi iqtisadi zonanın yaradılması ilə bağlı tədbirlər həyata keçirilməkdədir. Güclü tranzit və logistika imkanlarına malik Türkiyə ilə birgə Naxçıvanda AİZ yaradılması xüsusi əhəmiyyət daşıyır. Muxtar respublikada AİZ-in təşkili bu bölgənin iqtisadi cəlbediciliyini daha da artırmaqla yanaşı, Türkiyə sərhədi yaxınlığında böyük ixrac və logistika infrastrukturunun formalaşmasına səbəb olacaq, nəticədə istehsal olunan sənaye mallarının Türkiyə vasitəsilə dünya bazarlarına çıxışını təmin etmək xeyli asanlaşacaq.

**ELBRUS**

# İşsizliyin yaranmasına qarşı qabaqlayıcı tədbirlər görüləcək

Milli Məclisin plenar iclasında «İşsizlikdən sığorta haqqında» Qanun layihəsi qəbul edilib. Bu qanunun gündəliyə gətirilməsinin başlıca məqsədi əmək bazarında riskin ötürülməsinə əsaslanan münasibətlərin və yeni maliyyələşmə mexanizmlərinin yaradılması, sığortaolunanların itirilmiş əmək haqlarının kompensasiya olunması və işsizliyin yaranması hallarının qarşısının alınması üçün qabaqlayıcı tədbirlərin görülməsi yolu ilə əhalinin sosial müdafiəsinin gücləndirilməsinə təminat verilməsidir.

İşsizlikdən sığorta dedikdə, sığortaolunanların itirilmiş əmək haqlarının kompensasiya edilməsinə yönəldilmiş təminat forması nəzərdə tutulur. Sənədə əsasən, sığortaolunan işsizlikdən sığorta etməyi sığortaedəndən tələb edə, əmək bazarında həyata keçirilən aktiv tədbirlərdə iştirak edə, öz qanuni hüquqlarını və mənafeyini müdafiə edə və qanunla müəyyən olunmuş digər hüquqlarını həyata keçirə bilər. Sığortaedən isə özünün və sığortaolunanın qanuni mənafelərini müdafiə etmək, sığortaçıdan işsizlikdən sığorta ilə bağlı hüquq və vəzifələrinin izah edilməsini tələb etmək hüququna malikdir.

İşsizlikdən sığorta üzrə sığorta tarifləri aşağıdakı faiz dərəcələri ilə müəyyən edilir:

- sığortaolunan tərəfindən ödənilən sığorta haqqı üzrə - işçinin əməkhaqqının 0,5 faizi;
- sığortaedən tərəfindən ödənilən sığorta haqqı üzrə - hesablanmış əməyin ödənişi fondunun 0,5 faizi.

Sığorta ödənişinin - əsas sığorta ödənişi, sığorta ödənişinə əlavə və minimum sığorta ödənişi növləri vardır. Sığorta ödənişini almaq hüququna yalnız dövlət orqanının və ya hüquqi şəxsin ləğv olunması və ya işçilərin sayı və ya ştatların ixtisar edilməsi nəticəsində əmək münasibətlərinə xitam verilmiş və «Məşğulluq haqqında» Qanunla müəyyən olunmuş qaydada müvafiq icra hakimiyyəti orqanında işsiz kimi qeydiyyata alınmış sığortaolunanlar malikdirlər.

Bu qanuna görə, sığorta ödənişi almaq hüququ olan şəxslərə sığorta ödənişinin təyin edilməsi aşağıdakı qaydada həyata keçirilir:

- işsizliyin başlanmasından əvvəlki 24 təqvim ayı ərzində 12 təqvim ayından çox, lakin ən azı 3 il sığorta stajına malik əmək qabiliyyətli şəxslərə - Qanunun 14.1-ci maddəsində müəyyən olunmuş qaydada;
- işsizliyin başlanmasından əvvəlki 24 təqvim ayı ərzində 12 təqvim ayından az, lakin ən azı 3 il sığorta stajı olan əmək qabiliyyətli şəxslərə - Qanunun 16-cı maddəsində nəzərdə tutulan minimum sığorta ödənişi məbləğində.

Müəssisədə işin dayandırılması ilə əlaqədar qrup halında məzuniyyətə buraxılmış şəxslər (qanunun 13.2.2-ci maddəsində nəzərdə tutulmuş) üçün sığorta ödənişinə 1,2 əmsalı tətbiq olunacaq. Himayəsində 18 yaşa çatmamış uşaq olan şəxslərin əsas sığorta ödənişinə bu qanunla müəyyən edilmiş əlavə almaq hüququ vardır. İlk dəfə sığorta ödənişi təyin olunduğu vaxtdan 24 ay ərzində «Məşğulluq haqqında» Qanunda nəzərdə tutulmuş münasib işlə təmin olunmayan şəxsin bir dəfə təkrar müraciət edərək yenidən minimum sığorta ödənişi almaq hüququ vardır.

Sığorta ödənişi ilkin müraciət zamanı 6 ay, təkrar müraciət zamanı isə 3 ay müddətinə təyin ediləcək. Bir şəxs üçün sığorta ödənişinin verilmə müddəti ilkin müraciət zamanı sığorta ödənişi təyin edildiyi aydan sonrakı 24 ay ərzində 9 aydan artıq ola bilməz. İşsizliyə görə aylıq sığorta ödənişinin hesablanması qanunda nəzərdə tutulmuş şəxslər üçün sığorta ödənişi sığorta stajı 3 ildən 5 ilə qədər olduqda - 50 faiz, sığorta stajı 5 ildən 10 ilə qədər olduqda - 55 faiz, sığorta stajı 10 ildən yuxarı olduqda - 60 faiz tətbiq olunmaqla hesablanacaq.

Sığorta ödənişi sığortaolunanların «Məşğulluq haqqında» Qanunla işsiz kimi qeydiyyata alındığı aydan sonrakı ayın ilk günündən hesablanacaq. Sığorta ödənişinin məbləği müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilən əvvəlki ildə ölkə üzrə orta aylıq əməkhaqqı məbləğindən çox, minimum sığorta ödənişi məbləğindən isə az ola bilməz. Əsas sığorta ödənişinə əlavənin hesablanması hər uşağa görə 5 faiz, lakin 20 faizdən çox olmamaq şərtilə artırılır. Ailədə ər və arvadın hər ikisinə sığorta ödənişi təyin edildikdə onlardan yalnız birinin əsas sığorta ödənişinə əlavəni almaq hüququ vardır.

Sığorta ödənişi almaq üçün sığortaolunan müvafiq icra hakimiyyəti orqanına ərizə ilə müraciət etməlidir. Təqdim olunmuş müraciətə 10 gün ərzində baxılacaq, sığorta ödənişinin təyin edilməsi və ya təyin olunmasından imtina edilməsi barədə qərar çıxarılacaq və bu barədə müraciət etmiş şəxsə məlumat veriləcək. İlk dəfə təyin olunan sığorta ödənişi işsizlik müddətinin davamlılığına uyğun olaraq aşağıdakı faiz dərəcələrinə mütənasib şəkildə, lakin minimum sığorta ödənişinin məbləğindən az olmayaraq ödəniləcək: ilk 2 təqvim ayı üçün - 100 faiz, 4-cü təqvim ayları üçün - 80 faiz, 6-cı təqvim ayları üçün - 70 faiz. Təkrar müraciət zamanı isə minimum sığorta ödənişi ödəniləcək. Əsas sığorta ödənişinə əlavə əsas sığorta ödənişi ilə birlikdə ödəniləcək.

Sığorta ödənişi alan şəxs ayda bir dəfə müvafiq icra hakimiyyəti orqanına fərdi məşğulluq proqramının icrası barədə hesabatı şəxsən təqdim etməlidir. Hesabat təqdim olunan zaman sığorta ödənişini alan şəxsə müvafiq icra hakimiyyəti orqanı tərəfindən münasib iş, peşə hazırlığı, əlavə təhsil, eləcə də haqqı ödənilən ictimai işlərlə bağlı təkliflər təqdim oluna bilər.

Sığorta ödənişini alan şəxs işlə təmin edilən zaman fərdi məşğulluq proqramını üzrlü səbəblər olmadan icra etmədikdə, ona təklif olunan iki münasib işdən, peşə hazırlığından və ya əlavə təhsildən imtina etdikdə, sığorta ödənişi aldığı dövrdə müvafiq icra hakimiyyəti orqanına məlumat vermədən işə düzəldikdə və sözügedən qanunda əks olunan digər hallarda sığorta ödənişinin verilməsi dayandırılacaq.

Sığorta vəsaitləri sığorta fondunda cəmləşdiriləcək. İşsizlikdən sığorta vəsaitlərinin mənbələri isə işsizlikdən sığorta vəsaitləri ödənilən sığorta haqları, bu Qanunun tələblərinin pozulmasına görə İnzibati Xətalar Məcəlləsində nəzərdə tutulmuş inzibati xətalara görə tətbiq olunan inzibati cərimələrdən daxilolmalar, «Qrant haqqında» Qanuna uyğun olaraq verilən qrantlar, ianələr və yardımlar, bank kreditləri, qanunla və müvafiq icra hakimiyyəti orqanı tərəfindən nəzərdə tutulan digər mənbələr hesabına formalaşacaq.

Qanunun 2018-ci il yanvarın 1-dən qüvvəyə minməsi nəzərdə tutulur.

**Aytən NƏBİYEVA**

# Dialoq davam etdiriləcək

«Açıq Hökumət Platformasının təşəbbüsü ilə Vergilər Nazirliyində vətəndaş cəmiyyəti ilə keçirilən görüş çox əhəmiyyətli və məhsuldar oldu. Üç saata yaxın davam edən müzakirələrdə vətəndaş cəmiyyətini narahat edən bütün problemlər qaldırıldı, çoxsaylı suallar verildi. Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar departamentinin baş direktoru Samirə Musayeva və digər vəzifəli şəxslər öz fikirlərini bölüşdülər, sualları cavablandırdılar».

Bu sözləri Açıq Hökumət Platformasının saytına açıqlamasında platformanın koordinatoru Əliməmməd Nuriyev bildirib. O qeyd edib ki, görüş hər iki tərəf üçün çox faydalı olub: «Qeyd edim ki, Vergilər Nazirliyi Açıq Hökumət Platformasında təmsil olunur. Yəni bizim öz fikirlərimizi hər zaman Vergilər Nazirliyinin diqqətinə çatdırmaq, onların da öz rəylərini bizimlə bölüşmək imkanı var. Amma bu görüşün ekspert müzakirələri formatında keçirilməsi daha faydalı oldu. Vergilər Nazirliyi vergi orqanlarında aparılmış islahatlar və Vergi Məcəlləsində edilmiş dəyişikliklər barədə vətəndaş cəmiyyətinin mövqeyini, fikir və təkliflərini öyrəndi. Vətəndaş cəmiyyəti institutlarının təmsilçiləri isə nazirliyin baxışı, yanaşması, mövqeyi və arqumentləri ilə tanış olmaq imkanı əldə etdi.

Mövcud problemlərin həlli yolları ilə bağlı hər iki tərəfdən tövsiyə və təkliflər səsləndirildi, dünya təcrübəsinə istinad etməklə, fikir mübadiləsi aparıldı. Bir çox məsələlər, xüsusən bizes mühitinin yaxşılaşdırılması, şəffaflığın təmin edilməsi, korrupsiyaya qarşı mübarizə ilə əlaqədar aparılan işlərlə bağlı ortaq baxış və yanaşma ortaya qoyuldu.

Açıq və məhsuldar fikir mübadiləsi üçün ekspert müzakirələri daha optimal formatdır. QHT təmsilçiləri öz iradlarını açıq şəkildə bildirdilər. Bu, həm də problemlərin həlli yollarının axtarılmasına, daha peşəkar yanaşmanın ön plana çıxarılmasına imkan verir».

Platformanın koordinatoru müzakirələr zamanı konkret nəticələrin əldə olunduğunu da vurğulayıb: «İlk növbədə vergi qanunvericiliyi ilə bağlı nəzərdə tutulan dəyişikliklərin geniş ictimai müzakirələrdən keçməsinin vacibliyi barədə ortaq fikrə gəldik. Bu məsələlərdə platforma ilə nazirliyin əməkdaşlıq etməsi barədə ilkin razılıq əldə olundu. Qərara alındı ki, qrant müqavilələri üzrə ayrılan vəsaitlərin ƏDV-dən azad edilməsi ilə bağlı qanunvericiliyin izahının Vergilər Nazirliyinin məktubu ilə ifadə olunması üçün platforma adından müraciət edilsin. Eyni zamanda, Vergilər Nazirliyi ilə belə tədbirlərin keçirilməsinin davamlı olması, bu cür görüşlərin işlək əməkdaşlıq formatına çevrilməsi barədə razılaşdıq. Ən başlıcası isə vətəndaş cəmiyyəti institutları ilə Vergilər Nazirliyi arasında vasitəçilərsiz, birbaşa ünisyyət yarandı. Bu isə məhsuldar əməkdaşlığın ilkin şərtidir və hər iki tərəfə daim fikir mübadiləsində, təmasda olmağa imkan verir. Biz bu görüşün təşkili ilə bağlı maksimum səviyyədə açıqlığa və şəffaflığa, vətəndaş cəmiyyətinin geniş spektrinin əhatə olunmasına çalışdıq. «Facebook» sosial şəbəkəsində elan verdik, sualları topladıq. Bunun üçün ayrı-ayrı şəxslərin elektron poçt ünvanlarına müraciət etdik. Düşünürəm ki, bu, çox yaxşı təcrübə oldu və gələcəkdə daha da genişləndirilməlidir».

> Vergilər Nazirliyi vergi orqanlarında aparılmış islahatlar və Vergi Məcəlləsində edilmiş dəyişikliklər barədə vətəndaş cəmiyyətinin mövqeyini, fikir və təkliflərini öyrənir

**RƏŞAD**

## BİR CÜMLƏ - BİR XƏBƏR

Azərbaycanın Qazaxıstandakı səfirliyindən verilən məlumata görə, iyunun 28-də Astanada I Azərbaycan-Qazaxıstan turizm forumu keçiriləcək.

İqtisadiyyat Nazirliyi xarici bazarların araşdırılması məqsədilə ixracla məşğul olan sahibkarlardan müraciətlərin qəbulunu elan edib.

İtaliyanın nüfuzlu «La Stampa» qəzetinin tabeliyində olan «Turismo.it» səyahət portalında «Azərbaycan: Bakını kəşf etmək üçün atılası 10 addım» adlı məqalə dərc edilib.

Gələn il fevralın 6-da Küveytdə təşkil olunacaq İslam Əməkdaşlıq Təşkilatının üzv dövlətlərinin ticarət sərgisində ölkəmizdə fəaliyyət göstərən şirkətlərin nümayəndələri və sahibkarlar da iştirak edəcəklər.

İyunun 27-də Varşava şəhərində Polşa-Azərbaycan biznes forumunun keçirilməsi planlaşdırılır.

Beynəlxalq Telekommunikasiya İttifaqının 2017-ci il üçün Qlobal kibertəhlükəsizlik indeksi reytinqində Azərbaycan 0,559 balla 48-ci yerdə qərarlaşıb.

Mərkəzi Bankın məlumatına görə, mayın 1-nə ölkədə fəaliyyət göstərən bank və digər kredit təşkilatlarının kredit portfeli valyuta ekvivalentində 15.453,5 milyon manat təşkil edib.

Əmanətlərin Sığortalanması Fondu tərəfindən ləğv olunmuş 11 bank üzrə 734 milyon 245 min manatdan artıq kompensasiya ödənişi həyata keçirilib.

# İnvestisiyaların cəlb edilməsi üçün mühüm tədbirlər görülür

**Dünyada gedən qlobal iqtisadi böhranın, neftin qiymətinin ucuzlaşmasının Azərbaycan iqtisadiyyatına təsiri qeyri-neft sektorunun əhəmiyyətini daha da aktuallaşdırıb. Bunu nəzərə alaraq, hökumətin həyata keçirdiyi qabaqlayıcı tədbirlər nəticəsində son vaxtar bu sahəyə yönəldilən investisiyaların məbləğində artım müşahidə edilir.**

2017-ci ilin yanvar-may aylarında qeyri-neft sektoruna 2 milyard 8,2 milyon manat investisiya qoyulub. Ümumilikdə isə ölkənin iqtisadi və sosial sahələrinin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala 5 milyard 671,7 milyon manat vəsait yönəldilib. Dövlət Statistika Komitəsinin məlumatına görə, ümumi sərmayənin 73,1 faizi bilavasitə tikinti-quraşdırma işlərinin yerinə yetirilməsinə sərf edilib. İstifadə olunmuş vəsaitin 82,9 faizi məhsul istehsalı obyektlərinin, 11,9 faizi xidmət sahələri üzrə obyektlərin, 5,2 faizi isə ümumi sahəsi 629,7 min kvadratmetr olan yaşayış evlərinin payına düşür. Daxili mənbələrdən əsas kapitala yönəldilmiş vəsait ümumi sərmayənin 37,3 faizini təşkil edib. Əsas kapitala yönəldilən sərmayənin ümumi dəyərində müəssisə və təşkilatların vəsaitləri 70,4 faiz, bank kreditləri 12 faiz, büdcə vəsaitləri 11,2 faiz, əhalinin şəxsi vəsaitləri 4,5 faiz, büdcədənkənar fondların vəsaitləri 1,4 faiz, sair vəsaitlər isə 0,5 faiz təşkil edib.

### İnvestisiya qoyuluşunun artmasında vergi siyasətinin rolu

Ölkəmizə investisiya qoyuluşunun artmasında dövlət dəstəyi mexanizmləri və stimullaşdırıcı addımlar, o cümlədən vergi-gömrük siyasəti mühüm rol oynayır. Görülən işlər nəticəsində müxtəlif sahələr üzrə investisiyaların şaxələndirilməsi vergi daxilolmalarına da müsbət təsirini göstərir. Qeyd edək ki, 2016-cı ildə dövlət büdcəsinə Vergilər Nazirliyinin xətti ilə 7 milyard 15 milyon 165,4 min manat vergi daxil olub. Bu ilin yanvar-may ayları ərzində isə vergi ödəyiciləri tərəfindən dövlət büdcəsinə 2 milyard 825 milyon 799,7 min manat məbləğində vəsait ödənilib. Proqnozlaşdırılır ki, bu il Azərbaycanda vergi daxilolmalarının 75%-dən çoxu qeyri-neft sektorunun payına düşəcək.

Fiziki və hüquqi şəxslərin vergi uçotunun Vergilər Nazirliyi tərəfindən elektron qaydada həyata keçirilməsi vətəndaşların sahibkarlıq fəaliyyətinə başlamasını xeyli asanlaşdırıb. Qanunvericiliyə edilmiş dəyişikliklərə əsasən, hüquqi şəxslərin elektron dövlət qeydiyyatı rüsumsuz həyata keçirilir. Yeni müəssisə yaratmaq istəyən sahibkarlar qeydiyyat prosesinə cəmi bir neçə dəqiqə vaxt sərf edirlər. Görülən tədbirlərin nəticəsidir ki, 2016-cı ildə ölkə üzrə 145.874 yeni vergi ödəyicisi qeydiyyata alınıb. Təkcə bu ilin may ayı ərzində isə 10.581 hüquqi və fiziki şəxs dövlət qeydiyyatından keçib.

### Yeni fəaliyyətə başlayan xarici şirkətlərin sayı artıb

İnvestisiyaların cəlb edilməsi ilə bağlı Azərbaycan hökumətinin həyata keçirdiyi işlər xarici investisiyaya malik şirkətlərin marağının artmasına səbəb olub. Həmin şirkətlərin maraq göstərdiyi sahələrə sənaye, tikinti, turizm və xidmət sahələri də əlavə olunub. Bu isə öz növbəsində Azərbaycanda fəaliyyətə başlayan xarici şirkətlərin sayının artmasına səbəb olub. 2004-2016-cı illər ərzində ölkəmizdə 7 mindən artıq xarici investisiyalı şirkət qeydiyyatdan keçib və onlar, əsasən, qeyri-neft sektorunda - ticarət, xidmət, tikinti, sənaye, nəqliyyat, bank, sığorta, rabitə, kənd təsərrüfatı və digər sahələrdə fəaliyyətə başlayıblar.

İnvestisiyaların təşviqi məqsədilə son illər ölkəmizdə fəaliyyət göstərən şirkətlərə bir sıra güzəştlər tətbiq edilib: biznes qeydiyyatı sistemi sadələşdirilib, investisiyalarla bağlı mexanizmlər təkmilləşdirilib, vergi yükü azaldılıb, investorların hüquqlarının müdafiəsinin işlək mexanizmləri yaradılıb və əlverişli biznes mühiti formalaşdırılıb.

### Ölkəmizdə vergi yükü bir sıra Avropa ölkələrindən daha aşağı səviyyədədir

Azərbaycanda vergi yükünün optimallaşdırılması investisiya axınının artmasına xüsusi təsir göstərib. Məhz Ölkəmizdə hər il vergi yükünün azaldılması ilə bağlı vacib qərarlar qəbul olunur. Vergi qanunvericiliyinə edilmiş əlavə və dəyişikliklər vergi ödəyicilərinin hüquqlarının genişləndirilməsi və onlara göstərilən xidmətlərin səviyyəsinin artırılması ilə yanaşı, vergi yükünün azaldılmasını da nəzərdə tutur. Bunun əsas səbəblərindən biri də həyata keçirilən dövlət-vergi siyasətinin əsas hədəflərinin vergi yükünün optimallaşdırılması və vergi yükünün tədricən istehsaldan istehlaka keçirilməsinin təmin edilməsidir. Bu məqsədlə bir sıra mallar və xidmətlər üzrə vergilərin dərəcələri tam və ya qismən azaldılıb, bir sıra vergi güzəştləri tətbiq olunub ki, bu da vergi ödəyiciləri üçün əlverişli vergi mühitinin yaranmasına şərait yaradıb.

Beynəlxalq təşkilat və qurumların dünya ölkələrinin müxtəlif metodologiyaları əsasında hesablanmış illik vergi yükü barədə məlumatları mütəmadi olaraq dərc edilir. Dünya Bankının «Doing business» hesabatı (ümumi vergi dərəcəsi), Heritage Fondunun «İqtisadi azadlıq indeksi» kimi məlumatlar da bu qəbildəndir. «Doing business 2017» hesabatının Vergilərin ödənilməsi (Paying Taxes) indikatoru üzrə Azərbaycanın ümumi vergi dərəcəsi (o cümlədən sosial sığorta ödəmələri daxil olmaqla) 39,8% göstərilib. Həmin hesabatda Niderland (40,4%), Türkiyə (41,1%), ABŞ (44%), Avstraliya (47,6%), Almaniya (48,9%), İspaniya (49,0%), Avstriya (51,6%), İtaliya (62%) və Fransa (62,8%) kimi inkişaf etmiş ölkələrin vergi yükü daha yüksək əks etdirilib. Bu göstərici keçmiş sovet dövlətlərindən Moldovada 40,4%, Litvada 42,7%, Rusiyada 47,4%, Estoniyada 48,7%, Ukraynada 51,9%, Belarusda 54,8%-dir. Qeyd edək ki, bu göstəricilərə sosial sığorta ödəmələri də daxildir.

«Heritage» Fondunun 2017-ci il üzrə dərc etdirdiyi «İqtisadi azadlıq indeksi»ndə isə Azərbaycanın vergi yükü (sosial sığorta ödəmələri nəzərə alınmadan) 14,2% olmaqla 28-ci yerdə göstərilib. Bu sıralamada vergi yükünün səviyyəsinə görə ölkəmiz bir çox ölkələrdən daha əlverişli mövqeyə malikdir. Hesabatın 2017-ci il üzrə göstəricilərinə əsasən Özbəkistan 19,7%, Qırğızıstan 20,8%, Tacikistan 22,8%, Belarus 23%, Ermənistan 23,5%, ABŞ 26%, Latviya 27,8%, Türkiyə 28,7%, Litva 29,3%, Rusiya isə 35,3% vergi yükünə malikdir. Göründüyü kimi, Azərbaycanda vergi yükü ümumilikdə bir sıra Avropa və MDB ölkələrindən daha aşağı səviyyədədir.

### İkiqat vergitutmanın aradan qaldırılması ilə bağlı sazişlərin əhəmiyyəti

Azərbaycan hökumətinin bir sıra beynəlxalq müqavilələrə qoşulması - investisiyaların təşviqi və qorunması, gəlirlər və əmlakla bağlı ikiqat vergitutmanın aradan qaldırılması xarici investisiyaların ölkə iqtisadiyyatına axınını daha da stimullaşdırıb. İkiqat vergitutmanın aradan qaldırılmasını nəzərdə tutan sazişlər şəbəkəsi əhəmiyyətli dərəcədə genişlənib və bu günə kimi 50-dən çox ölkə ilə müvafiq sazişlər imzalanıb. Bu sazişlərin əsas məqsədi mal və xidmətlərin sərbəst beynəlxalq mübadiləsinə maneçilik törədən vergi maneələrinin aradan qaldırılması yolu ilə beynəlxalq ticarət və sərmayə qoyuluşunu təşviq etməkdir. Beynəlxalq vergi müqavilələrinin mövcudluğu vergi ödəyicilərinə münasibətdə ayrı-seçkiliyə yol verilməyəcəyinə təminat verir. İkiqat vergitutmanın aradan qaldırılmasını nəzərdə tutan sazişlər hazırlanarkən, ilk növbədə, ölkəmizin iqtisadi əlaqələrinin geniş olduğu dövlətlərə xüsusi diqqət yetirilir. İndiyədək imzalanmış müqavilələrin əksəriyyəti Avropa İttifaqına üzv ölkələrlə, digər müqavilələr isə respublikamızın əsas xarici ticarət tərəfdaşlarını, iqtisadi əlaqələrimizin mövcud olduğu və ya iqtisadi maraq doğuran dövlətləri əhatə edir.

Bütün bunlar ölkədə əlverişli investisiya mühitinin yaradılmasına birbaşa təsir göstərməklə yanaşı, həm də vergidən yayınma hallarının qarşısının alınması məqsədilə qeyd olunan saziş və müqavilələrə qoşulmuş dövlətlərin vergi orqanlarının bir-birinə qarşılıqlı yardım göstərməsi üçün əlavə imkanlar açır.

> Azərbaycan hökumətinin bir sıra beynəlxalq müqavilələrə qoşulması - investisiyaların təşviqi və qorunması, gəlirlər və əmlakla bağlı ikiqat vergitutmanın aradan qaldırılması xarici investisiyaların ölkə iqtisadiyyatına axınını daha da stimullaşdırıb

**R. SADIQOV**

# Vergi ödəyiciləri ilə görüş

İyunun 16-da 12 saylı Ərazi Vergilər Departamentinin Vergi ödəyicilərinə xidmət və şəffaf vergi partnyorluğu idarəsinin əməkdaşları Naftalan şəhərində vergi ödəyiciləri ilə görüş keçirmişlər. Tədbirdə vergi ödəyicilərini maraqlandıran məsələlər ətarfında ətraflı müzakirələr aparılmışdır.

Departamentin Vergi ödəyicilərinə xidmət və şəffaf vergi partnyorluğu idarəsinin direktoru Rauf Mirzəyev Vergi Məcəlləsinə edilən son dəyişikliklərdə nağdsız hesablaşmaların həcminin artırılması, elektron ticarətin vergiyə cəlb edilməsi, transfer qiymətqoyma, uçot siyasətinin təkmilləşdirilməsi və şəffaflaşdırılması, vergi yükünün azaldılması, vergi inzibatçılığının sadələşdirilməsi, vergi ödəyicilərinin hüquqlarının genişləndirilməsi, vergi qanunvericiliyinə əməl edən intizamlı vergi ödəyicilərinə münasibətdə vergi orqanları tərəfindən göstərilən xidmətlərin səviyyəsinin daha da artırılması kimi mühüm məsələlərin əhatə edildiyini bildirmişdir.

Görüş iştirakçılarına müəyyən fəaliyyət növləri ilə məşğul olan fiziki şəxslərin sabit məbləğlə vergiyə cəlb olunması qaydaları şərh edilmiş, bu addımın daha çox uçotun sadələşdirilməsi və inzibati vergi yükünün minimuma endirilməsi məqsədi daşıdığı vurğulanmışdır.

# Azərbaycanın idxal-ixrac potensialı güclənir

Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Tahir Mirkişili bildirmişdir ki, Azərbaycanda qeyri-neft sektorunun inkişaf etdirilməsi, istehsalın həcminin artırılması, eyni zamanda ixraca yönəlik iqtisadiyyatın formalaşması ilə müşayiət edilən yeni iqtisadi model formalaşmaqdadır: «2017-ci ilin birinci rübünün iqtisadi yekunlarına görə, Azərbaycanda ixracın, iqtisadiyyatda qeyri-neft sektorunun, kənd təsərrüfatının həcmi artmaqdadır. Bu isə qarşıya qoyulan hədəflərə çatmaq istiqamətində görülən işlərin artıq öz bəhrəsini verdiyini göstərir. Təbii ki, daxili istehsal həcminin artmasının ən bariz nümunələrindən biri də bu artımın xarici bazarlarda reallaşdırılmasıdır».

T.Mirkişilinin sözlərinə görə, hökumətin iqtisadi siyasətində ixrac zamanı daha çox rəqabətqabiliyyətli məhsullara üstünlük verilir: «İqtisadiyyatda əsas tələblərdən biri ölkədə istehsal olunan məhsulun bir hissəsinin hökmən xarici bazarlara çıxarılmasıdır. İstehsalın yalnız ölkənin daxili bazarı ilə məhdudlaşdırılması onun gələcək inkişafına təminatı azaldır. Xarici bazarlara çıxanda isə yerli istehsalın üzləşdiyi ən birinci çətinlik həmin bazarlardakı rəqabətdir. Bunun üçün Azərbaycan şirkətlərinin beynəlxalq miqyasda təmsil olunmasına, bazara çıxarılan Azərbaycan məhsullarının üstün cəhətləri barədə xarici istehlakçılar arasında təbliğatın düzgün qurulmasına böyük ehtiyac var. Təqdirəlayiq haldır ki, dövlət orqanları bu istiqamətdə sahibkarlara yaxından kömək göstərir. İndi ixrac missiyalarının, eləcə də xarici ölkələrdəki Azərbaycan səfirliklərində ticarət nümayəndələrinin təyin olunması prosesi başlayıb. «Made in Azerbaijan» brendi ilə beynəlxalq sərgilərdə iştirakın təmin edilməsi də bu prosesdə müsbət rol oynayır. Bütün bunlarda başlıca məqsəd Azərbaycan məhsullarını dünyada tanıtmaq, yerli istehsalın arxasında Azərbaycan dövlətinin dayandığını, ixracla məşğul olan şirkətlərə dəstək verildiyini nümayiş etdirməkdir».

Dövlət Statistika Komitəsinin məlumatına görə, 2017-ci ilin yanvar-aprel aylarında Azərbaycan Respublikasının hüquqi və fiziki şəxsləri dünyanın 157 ölkəsindəki tərəfdaşları ilə ticarət əməliyyatları həyata keçirmiş, 93 ölkəyə məhsul ixrac edilmiş, 148 ölkədən isə idxal olunmuşdur.

Gömrük orqanlarında qeydiyyatı aparılmış, lakin gömrük rəsmiləşdirilməsi tam başa çatdırılmamış ixrac olunan xam neft və təbii qazın statistik qiymətləndirilmiş dəyəri nəzərə alınmaqla 2017-ci ilin yanvar-aprel aylarında xarici ticarət dövriyyəsi 7 milyard 8 milyon ABŞ dolları, o cümlədən ixracın dəyəri 4 milyard 835,8 milyon dollar, idxalın dəyəri 2 milyard 165,0 milyon dollar təşkil etmiş, nəticədə 2670,8 milyon dollarlıq müsbət ticarət saldosu yaranmışdır. 2016-cı ilin yanvar-aprel ayları ilə müqayisədə xarici ticarət dövriyyəsi faktiki qiymətlərlə 8,8 faiz artmış, real ifadədə isə 15,2 faiz, o cümlədən ixrac 6,8 faiz, idxal 27,6 faiz azalmışdır. Ticarət dövriyyəsinin 39,4 faizi Avropa İttifaqı ölkələri, 12,1 faizi MDB üzvü dövlətləri, 48,5 faizi isə dünyanın digər ölkələrinin payına düşmüşdür. İxracın dəyərinin 23,2 faizi İtaliyaya, 10,8 faizi Türkiyəyə, 5,4 faizi Çinə, hər biri 5,2 faiz olmaqla Portuqaliya və İsrailə, 4,9 faizi Tayvana (Çinin əyaləti), hər biri 4,4 faiz olmaqla Almaniya və Kanadaya, 4,3 faizi Gürcüstana, hər biri 3,4 faiz olmaqla Rusiya və Hindistana, qalan 25,4 faizi isə digər ölkələrə göndərilmiş məhsullar əsasında formalaşmışdır.

İdxal olunmuş məhsulların dəyərinin 18,8 faizi Rusiyanın, 16,6 faizi Türkiyənin, 9,8 faizi Çinin, 5,0 faizi Almaniyanın, 4,5 faizi Ukraynanın, 4,4 faizi ABŞ-ın, 3,8 faizi İtaliyanın, 3,7 faizi Birləşmiş Krallığın, 3,3 faizi İranın, 2,5 faizi Qazaxıstanın, 1,8 faizi Fransanın, 25,8 faizi isə digər ölkələrin payına düşmüşdür.

2017-ci ilin yanvar-aprel aylarında 408,2 milyon dollar dəyərində qeyri-neft məhsulları ixrac edilmişdir ki, bu da 2016-cı ilin müvafiq dövrünə nisbətən faktiki qiymətlərlə 22,6 faiz, real ifadədə isə 20,5 faiz çoxdur.

> Dövlət Statistika Komitəsinin məlumatına görə, 2017-ci ilin yanvar-aprel aylarında Azərbaycan Respublikasının hüquqi və fiziki şəxsləri dünyanın 157 ölkəsindəki tərəfdaşları ilə ticarət əməliyyatları həyata keçirib, 93 ölkəyə məhsul ixrac edilib, 148 ölkədən isə idxal olunub

**F.İKRAMQIZI**

# Azərbaycandan nə ixrac olunur...

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin «İxrac icmalı»nın iyun buraxılışı təqdim olunub. İcmalda may ayında qeyri-neft sektoru üzrə 445 şirkət tərəfindən 149 milyon ABŞ dolları həcmində ixrac əməliyyatlarının həyata keçirildiyi qeyd olunub. May ayı üzrə ixrac edilən əsas mallar pomidor, kartof, ağ şəkər, xüsusi kütləsi 0,94-dən az olan ilkin formalı polietilen, metanol (metil spirti), alüminium ərintilərindən qalınlığı 0,2 millimetrdən çox olan düzbucaqlı plitələr, vərəqlər, zolaqlar, qızıl, emal olunmayan aşqarlanmamış alüminium, qabığı təmizlənmiş meşə fındığı, pambıq lifi, üzüm çaxırı, mis filizləri və konsentratları, günəbaxan və ya saflor yağı, alma, soğan və s.-dir.

**2017-ci ilin 5 ayında qeyri-neft sektoru üzrə 5 əsas ixrac ölkəsi**




Beş ay ərzində qeyri-neft sektoru üzrə ixrac 557 milyon ABŞ dolları olub. Əməliyyatlarda 1021 şirkət iştirak edib. Bu müddətdə qeyri-neft məhsullarının ixrac edildiyi ölkələrin siyahısında ilk beşlikdə Rusiya, Türkiyə, Gürcüstan, İsveçrə və Türkmənistan var.

«Azexport.az» portalının qeyri-neft sektoru üzrə ixraca töhfə verməsinə gəlincə, icmalda qeyd edilir ki, may ayında daxil olan sifarişlərin ümumi dəyəri 19 milyon dollar olub. May ayında ilk dəfə portala Slovakiya, Tayvan və Surinam Respublikasından sifarişlər daxil olub. May ayında sifarişləri məhsullar üzrə təhlil etdikdə aydın olur ki, qeyri-neft sektorunda istehsal edilən müxtəlif məhsullar - quru süd, meyvə tamlı süd, qırmızı yumurta, günəbaxan yağı, toyuq əti, armatur, yerkökü, şərab, kərə yağı, pambıq toxumu, alma, kosmetik vasitə, makaron, kərpic, nar, qaya duzu, avtomobil diaqnostika aparatı, çay, yataq dəsti, ipək xalça, mebel dəsti, mühərrik yağı, qənnadı məhsulları, boya, nar şirəsi sifariş olunanlar arasındadır.

## Bu ilin 5 ayı ərzində «Azexport.az» portalına 45 ölkədən 130 milyon ABŞ dolları məbləğində ixrac sifarişləri daxil olub

May ayı ərzində Səudiyyə Ərəbistanı, ABŞ və Hindistandan «Azexport.az» portalına daxil olan ixrac sifarişlərinin sayı artıb. Səudiyyə Ərəbistanından sifarişlər çaya, qənnadı məmulatlarına, avtomobil diaqnostika aparatına, ABŞ-dan sifarişçilər təbii bala, fındıq ləpəsinə, nar şirəsinə, bəzəkli şüşə qablara, Hindistandan nar şirəsinə, konyaka və s. olub. 2017-ci ilin yanvar ayında portala 48 milyon, fevral ayında 6.5 milyon, mart ayında 27 milyon, aprel ayında 29.9 milyon, may ayında isə 19 milyon ABŞ dolları dəyərində ixrac sifarişləri daxil olub. Ümumilikdə, beş ay ərzində «Azexport.az» portalına 45 ölkədən 130 milyon ABŞ dolları məbləğində ixrac sifarişləri daxil olub.

Müntəzəm olaraq yayımı nəzərdə tutulan icmalın məqsədi sahibkarları ixracla bağlı maarifləndirməyə, yerli malların ənənəvi və yeni bazarlara çıxarılması imkanlarını artırmağa və beynəlxalq bazarlara inteqrasiya prosesini sürətləndirməyə xidmət edir. «İxrac icmalı» ilə www.iqtisadiislahat.org saytının icmallar bölümündə tanış olmaq mümkündür.

Qeyd edək ki, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin fəaliyyətinin məqsədləri ölkənin dayanıqlı iqtisadi inkişafının təmin edilməsi istiqamətində makro və mikroiqtisadi səviyyədə təhlil və tədqiqatlar aparmaqla, analitik məlumatlar əsasında iqtisadi islahatların həyata keçirilməsi üçün təkliflər, habelə orta və uzunmüddətli dövr üçün proqnozlar hazırlamaqdan, dövlət orqanlarını və qurumlarını həmin proqnozlarla təmin etməkdən, həmçinin iqtisadiyyatın müxtəlif sahələrində Azərbaycan Respublikasının nailiyyətlərinin təbliğini təşkil etməkdən ibarətdir.

**2017-ci ilin may ayında əsas qeyri-neft ixrac mallarının siyahısı**




**Qeyd:** May ayında infoqramda yer alan məhsullardan əlavə, qeyri-neft sektoru üzrə yüzlərlə məhsul ixrac olunmuşdur

**Mənbə:** Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi

# Nağdsız əməliyyatlar müasir dövrün tələbidir

Ölkə iqtisadiyyatında şəffaflığın artırılması, maliyyə intizamının gücləndirilməsi və vergitutma bazasının genişləndirilməsi məqsədilə nağdsız əməliyyatların stimullaşdırılması və nağd əməliyyatların məhdudlaşdırılması vacib şərtlərdən hesab olunur. Bu ilin əvvəlindən qüvvəyə minmiş «Nağdsız hesablaşmalar haqqında» Azərbaycan Respublikası Qanunu ölkəmizdə nağdsız əməliyyatların həcminin artması, bankların maliyyə vəziyyətinin yaxşılaşması, likvidliyin təmin edilməsi, pul dövriyyəsinin tənzimlənməsi və büdcə vəsait lərinin xərclənməsində şəffaflığın artırılması məqsədi daşıyır.

Qanunun tələblərindən irəli gələrək, Vergi Məcəlləsində də müvafiq dəyişikliklər edilmiş, bəzi anlayışlara aydınlıq gətirilmişdir. Nağdsız hesablaşma dedikdə, bir şəxsin bank hesabından digər şəxsin bank hesabına köçürülməklə (o cümlədən ödəniş alətləri (ödəniş kartları, ödəniş tapşırığı və s.) və ödəniş vasitələri ilə (mobil telefon aparatları, kompüter və digər avadanlıqlar), ödəniş terminalları ilə, birbaşa nağd qaydada satıcının bank hesabına köçürülməklə həyata keçirilən hesablaşmalar nəzərdə tutulur.

Nağdsız ödənişlərin önəmini, həm sahibkarlar, həm də dövlət üçün əhəmiyyətini izah etmək məqsədilə Vergilər Nazirliyi tərəfindən ötən ilin sonlarından başlayaraq sahibkarlarla silsilə görüşlər keçirilmişdir. Lakin bir faktı da inkar etmək mümkün deyil ki, aparılan məlumatlandırma-təşviqat tədbirlərinə və yaradılmış bütün imkanlara baxmayaraq, ictimai iaşə, topdan və pərakəndə ticarət obyektlərində bəzi sahibkarlar fəaliyyətlərini yenə də qanun çərçivəsində qurmur və nağdsız hesablaşmalara keçmirlər. Təbii ki, Vergilər Nazirliyinin məqsədi vergi ödəyicilərinə cərimə tətbiq etmək deyil, hər bir ödəyicinin qanuna riayət etməsində, vergilərin dövlət büdcəsinə vaxtında və tam həcmdə ödənilməsində mövcud qanunvericiliyə uyğun olaraq, bütün tədbirləri həyata keçirməkdir. Qanun isə hamı üçündür və onun tələblərinə riayət etməyən hər kəs layiqli cəzasını almalıdır.

«Nağdsız hesablaşmalar haqqında» Qanunda göstərilir ki, ƏDV məqsədləri üçün qeydiyyata alınmış vergi ödəyiciləri və vergi tutulan əməliyyatlarının həcmi ardıcıl 12 aylıq dövrün istənilən ayında (aylarında) iki yüz min manatdan artıq olan ticarət və (və ya) ictimai iaşə fəaliyyəti ilə məşğul olan vergi ödəyiciləri tərəfindən təqvim ayı ərzində ümumi məbləği otuz min manatdan, digər vergi ödəyiciləri tərəfindən isə təqvim ayı ərzində ümumi məbləği on beş min manatdan artıq olan hesablaşmalar üzrə ödənişlər yalnız nağdsız qaydada həyata keçirilməlidir. Qanuna görə, ƏDV məqsədləri üçün qeydiyyata alınmış və vergi tutulan əməliyyatlarının həcmi ardıcıl 12 aylıq dövrün istənilən ayında (aylarında) iki yüz min manatdan artıq olan vergi ödəyicilərinə münasibətdə 2017-ci il yanvarın 1-dən, digər vergi ödəyicilərinə münasibətdə isə 2017-ci il aprelin 1-dən qüvvəyə minmişdir.

Mərkəzi Bankın Ödəniş sistemləri və hesablaşmalar departamentinin direktoru Kəmalə Qurbanova nağdsız hesablaşmalar sahəsində görüləcək işlər barədə danışarkən bildirmişdir ki, «MasterCard Worldwide» beynəlxalq kart şirkəti ilə əməkdaşlıq edilməsi və bu çərçivədə yeni strateji sənədin hazırlanması nəzərdə tutulur. Bu sahədə strateji platformanın hazırlanması üçün aidiyyəti dövlət qurumlarının təmsilçiləri, habelə biznes strukturları və istehlakçılarla görüşlər keçiriləcək, sahəvi yanaşmalar əsasında müvafiq təhlillər aparılacaq.




**Rəşad SADIQOV**

# Hökumət-sahibkar dialoqu genişləndirilir

*Sumqayıtda «Əmək münasibətlərinin tənzimlənməsi və koordinasiyası» mövzusunda tədbir keçirilib*

Baş nazirin müavini, Əmək Münasibətlərinin Tənzimlənməsinin Təkmilləşdirilməsi və Koordinasiyası Komissiyasının sədri Əli Əhmədov bildirib ki, tədbirin keçirilməsində əsas məqsəd hökumət-sahibkar dialoqunun genişləndirilməsidir: «Azərbaycan iqtisadiyyatı son 12 ildə 3,5 dəfə artıb, yoxsulluq həddi 50%-dən 5-6%-dək azalıb. Bu illər ərzində 1,5 milyon yeni iş yeri açılıb. Kənd və şəhərlərdə infrastrukturun yaxşılaşdırılması ilə bağlı xeyli işlər görülüb. Azərbaycan iqtisadiyyatında köklü islahatlar aparılması nəzərdə tutulub. Ölkə Prezidentinin tapşırıqlarına uyğun olaraq, iqtisadiyyatın şaxələndirilməsi ilə bağlı mühüm addımlar atılıb. Bu gün Azərbaycan əhalisinin sayı 10 milyon nəfərə yaxın, məşğul əhalinin sayı isə 4,6 milyon nəfərdən çoxdur. Məşğul əhalinin 33%-i əmək münasibətləri ilə tənzimlənib. Başqa sözlə, məşğul əhalinin 67%-i əmək münasibətləri ilə tənzimlənmir».

Baş nazirin müavini deyib ki, bu sahədə hökuməti narahat edən əsas problemlərdən biri də «qara mühasibat»ın mövcudluğudur: «2016-cı ildə Dövlət Sosial Müdafiə Fonduna 1 milyard 921 milyon manat vəsait daxil olub ki, bunun da 1 milyon 500 min manatı muzdlu işçilərin hesabına, 7 milyon 850 min manatı isə sosial ödənişlərin hesabına formalaşıb».

Əli Əhmədovun sözlərinə görə, ölkədə bir iş yeri bağlandıqda həyəcan təbili çalınmalı, hər yeni iş yeri yaradıldıqda isə bu iş yerini yaradan sahibkara təşəkkür etmək lazımdır: «Bəzən işəgötürənlər işçilərin hüquqlarını lazımi səviyyədə qoruya bilmirlər. Bu səbəbdən, əmək münasibətlərinin tənzimlənməsinə ciddi fikir veririk ki, gələcəkdə pensiya alanların hüquqları pozulmasın. Bunu aradan qaldırmaq üçün yollar tapmalıyıq. Əks təqdirdə, pensiya yaşına çatanda dövlət onları yenidən sahibkarların üstünə göndərəcək və haqlarını tələb etməyi xahiş edəcək. Gələcəkdə onların pensiyalarını ödəməyə hazırsınızmı? Onlar sizləri məhkəməyə verərək öz haqlarını tələb edəcəklər. Vətəndaşın buna tam ixtiyarı var. Bu baxımdan, sahibkarlar zəruri addımları indidən atmalıdırlar. Niyyətimiz sahibkarlığın genişləndirilməsidir».

# İcbari tibbi sığorta bütün ölkə üzrə tətbiq olunacaq

Azərbaycanda əhalinin tibbi xidmətlərdən maksimum istifadə imkanlarının artırılması, keyfiyyətli tibbi xidmətlər göstərilməsinin stimullaşdırılması, səhiyyə sahəsində dayanıqlı maliyyə mənbələrinin formalaşdırılması istiqamətində ən mühüm tədbirlərdən biri icbari tibbi sığortanın tətbiq edilməsidir. Bu məqsədlə 2016-cı ildə Nazirlər Kabineti yanında İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin əsasnaməsinin və strukturunun hazırlanması, baza zərfinin təsdiq edilməsi və icbari tibbi sığortanın pilot qaydada tətbiqinə başlanılması layihənin ölkənin bütün bölgələrində həyata keçirilməsinə şərait yaradıb. Bu istiqamətdə Agentlik icbari tibbi sığorta sahəsində vahid dövlət siyasətini həyata keçirir, əhalinin bütün təbəqələrinin zəruri tibbi xidmətlərdən istifadəsinə əlçatanlığını təmin edir, vətəndaşların sağlamlığının qorunması və yaxşılaşdırılması məqsədilə tibbi xidmətlərin keyfiyyət və səmərəliliyinin artırılması istiqamətində tədbirlər görür.

> İcbari tibbi sığorta humanizm prinsiplərinə əsaslanan sosial layihədir və ondan ölkə vətəndaşları, habelə Azərbaycan ərazisində müvəqqəti və ya daimi yaşamaq üçün icazəsi olan əcnəbilər və vətəndaşlığı olmayan şəxslər faydalanmaq hüququna malikdirlər

İcbari tibbi sığorta humanizm prinsiplərinə əsaslanan sosial layihədir və ondan ölkə vətəndaşları, habelə Azərbaycan ərazisində müvəqqəti və ya daimi yaşamaq üçün icazəsi olan əcnəbilər və vətəndaşlığı olmayan şəxslər faydalanmaq hüququna malikdirlər. İcbari tibbi sığortanın tətbiqi xəstəliklərin erkən mərhələdə aşkar edilməsi ilə daha ağır mərhələyə keçidinin qarşısını alacaq, ən ucqar kəndlərdə əhali keyfiyyətli tibbi xidmətlərlə təmin olunacaq, infeksion və digər xəstəliklərin səmərəli profilaktikası təşkil ediləcək. Bu sığortanın baza zərfinə 1829 sayda tibbi xidmət daxildir. Vətəndaşlar baza zərfinə daxil olmayan xidmətləri əlavə ödəniş əsasında əldə edə bilərlər. Baza zərfi tərəfindən təminat verilməmiş hər bir xidmət və ya müayinə üçün tariflər ölkə Prezidentinin 2016-cı il 28 dekabr tarixli fərmanı ilə təsdiq olunub. İcbari tibbi sığortanın əsas xidmətlər zərfinə təcili və təxirəsalınmaz tibbi yardım, habelə stasionar müalicə müddətlərində istifadə olunacaq dərman vasitələri daxildir. Hazırda icbari tibbi sığorta pilot layihə kimi Mingəçevir şəhərində və Yevlax rayonunda həyata keçirilir, gələcəkdə isə mərhələli şəkildə bütün ölkə üzrə tətbiq edilməsi planlaşdırılır.

İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin direktoru Zaur Əliyevin sözlərinə görə, pilot rayonlarda icbari tibbi sığorta fevral ayından etibarən tətbiq olunur. Layihə ilə bağlı vəsait dövlət büdcəsindən ödənildiyi üçün bu il həmin pilot rayonlarda icbari sığorta haqqı tətbiq olunmayacaq. Pilot rayonlarda rəsmi qeydiyyatda olan hər kəsin sığortalı sayıldığını deyən direktor bildirib ki, bu ilin 4 ayı ərzində təkcə Mingəçevirdə 700-ə yaxın cərrahi əməliyyat həyata keçirilib.

İcbari tibbi sığorta haqqı üçün qanunvericilikdə dəyişiklik edilməli olduğunu deyən direktorun sözlərinə görə, bu məsələ hazırda qanunvericilikdə əksini tapmadığı üçün pilot rayonlarda icbari tibbi sığorta haqqı tətbiq olunmur: «Maliyyə mənbələri ilə bağlı təkliflərimizi Prezident Administrasiyasına təqdim etmişik və aidiyyəti qurumlarla müəyyən müzakirələr başlanıb. Müzakirələr bitdikdən sonra sənəd Milli Məclisə göndəriləcək. Bundan sonra icbari tibbi sığorta haqqını açıqlamaq mümkün olacaq».

İcbari tibbi sığortanın ölkə ərazisində mərhələli tətbiq olunmasını vacib sayan direktor bildirmişdir ki, hazırda dövlət büdcəsində gələn il icbari tibbi sığorta ilə bağlı həm ayrılacaq vəsaitin həcmi, həm də icbari tibbi sığorta haqları ilə bağlı daxil olacaq vəsaitlərin proqnozlaşdırılması aparılır. Hansı kateqoriya əhalinin icbari tibbi sığortanı ödəməli, hansı kateqoriyanın icbari tibbi sığorta haqqını dövlət ödəməli olduğu müəyyənləşdirilir. Bununla bağlı sənəd Prezident Administrasiyasına göndərilib».

**AYTƏN**

## ELAN

ASAN imza sertifikatının qüvvədə olma müddəti 3 il olduğundan və 2014-cü ilin iyun və növbəti aylarında alınmış sertifikatların etibarlılıq müddəti 2017-cı ilin iyun və növbəti aylarında bitəcəyindən, ASAN imza sertifikatının yenisini almaq üçün qüvvədə olan ASAN imzanız vasitəsilə www.asxm.gov.az/portal/login portalına daxil olub müvafiq ərizəni, müqaviləni və etibarnamələri imzaladıqdan sonra ASAN imza sim kartını dəyişərək vergi ödəyicilərinə xidmət mərkəzlərinə və ya ASAN xidmət mərkəzlərinə yaxınlaşa bilərsiniz.

ASAN imza ilə əlaqədar əlavə sualınız yaranarsa, Vergilər Nazirliyinin 195-1 Çağrı Mərkəzinə, rəsmi internet saytının «Sual-cavab» bölməsinə www.taxes.gov.az/www.taxes/faq/sual.html və www.asxm.gov.az internet ünvanına müraciət edə bilərsiniz.

Vergilər Nazirliyinin Asan Sertifikat Xidmətləri Mərkəzi

beynəlxalq panoram

# İndoneziya «Google» ilə vergi sazişi imzalayır

İndoneziyanın Maliyyə Nazirliyindən verilən məlumata əsasən, «Google Alphabet Inc» korporasiyası ilə razılığa gələnə qədər ödənilməli olan vergi məbləği barədə mübahisələr və müzakirələr bir neçə ay davam etmişdir. Xatırladaq ki, keçən ilin sentyabr ayında İndoneziyanın yüksək vəzifəli vergi məmurlarından biri bəyan etmişdi ki, Cənub-Şərqi Asiyanın iqtisadi baxımdan nəhəng ölkəsi olan İndoneziya «Google» şirkətindən son beş il ərzində ödəmədiyi vergiləri tələb etməyi planlaşdırır. Onun sözlərinə görə, bu məbləğ yalnız 2015-ci il üçün 400 milyon ABŞ dollarından artıq olmuşdu. «Artıq bizim şirkətlə 2016-cı ilin borclarının ödənilməsinə dair razılaşmamız var. Rəqəmləri isə açıqlaya bilmərik», - İndoneziyanın maliyyə naziri Şri Mulyani İndravati jurnalistlərlə söhbətində bildirmişdir.

Qeyd edək ki, keçən il «Google» şirkəti Britaniya hökuməti ilə yaranmış vergi mübahisələrinin yoluna qoyulması üçün 130 milyon funt sterlinq (282,5 milyon manat) məbləğində vergi sazişi imzalamışdı.

# Tailanda ƏDV dərəcəsini artırmaq tövsiyə edilib

Beynəlxalq Valyuta Fondunun (BVF) Tailand üzrə hesabatında bildirilmişdir ki, dövlətin yaxşı təşkil edilmiş əlavə dəyər vergisi (ƏDV) sistemi mövcuddur. Bununla belə, ƏDV-nin dərəcəsi dünya üzrə ən aşağı səviyyələrdədir. Bunu nəzərə alaraq, BVF hökumətə ƏDV dərəcəsini ikiqat artırmağı - 7 faizdən 14 faizə qaldırmağı tövsiyə etmişdir.

BVF-nin məlumatına əsasən, bu addımın atılması hökumətə ümumi daxili məhsulda verginin payını 0,6 faiz qaldırmağa kömək edə bilər. Fond hesab edir ki, hökumət əhalinin sosial baxımdan zəif müdafiə olunan təbəqəsinin mənafeyi naminə ƏDV-nin artırılmasının nəticələrini yumşaltmaq üçün müvafiq tədbirlər görməlidir. Buna görə də vergi dərəcəsinin artırılması ilə paralel olaraq, kompleks vergi güzəştləri də hazırlanmalıdır.

Bundan əvvəl Tailandın maliyyə naziri dövlətin sosial proqramları həyata keçirə bilməsinə şərait yaratmaq üçün ƏDV-nin dərəcəsinin 7 faizdən 8 faizə qaldırmaq barədə təklif irəli sürmüş, lakin bununla bağlı hər hansı qərar qəbul edilməmişdi.

Ümumiyyətlə, Tailandda ƏDV dərəcəsi 10 faiz təşkil edir, lakin 1999-cu ildən iqtisadiyyatın dəstəklənməsi üçün müvəqqəti olaraq bu göstəricinin 7 faizə qədər aşağı salınması barədə qərar qəbul edilmişdi və həmin qərar indiyə qədər öz qüvvəsində qalır.

# Niderlandda yığılan verginin məbləği büdcə profisitinə imkan yaradacaq

Maliyyə Nazirliyinin hesablamalarına əsasən, ölkədə vergi daxilolmaları yüksək olduğuna görə, bu il büdcə profisitinə nail olunacaq. Vergi sahəsini təmsil edən hakimiyyət dairələri əvvəlcə büdcəyə nəzərdə tutulduğundan 8 milyard avrodan artıq vergi daxil olacağını proqnozlaşdırmışdılar. Ayrı-ayrı vergi növlərinə gəldikdə isə ilkin proqnozlarla müqayisədə büdcəyə əlavə dəyər vergisi üzrə 2,4 milyard, korporativ vergi üzrə 2,3 milyard dollar artıq vəsait daxil olacağı gözlənilir. Gəlir vergisinin məbləği isə büdcədə nəzərdə tutulduğundan 1,2 milyard avro çox olacaq. Maliyyə Nazirliyinin qiymətləndirmələrinə görə, bu il büdcə profisiti ümumi daxili məhsulun 0,2 faizi qədər olacaq, 2021-ci ilə qədər isə bu göstərici 1,3 faizə çatacaq.

# Xəbər lenti

**Botsvana** İqtisadi Əməkdaşlıq və İnkişaf təşkilatının (OECD) BEPS fəaliyyət planına qoşulmuşdur.

**Portuqaliya**dakı banklar, ölkə Assambleyasının qərarına əsasən, bundan sonra müştərilərə kart əməliyyatlarına görə vergiləri verə bilməyəcək.

**Səudiyyə Ərəbistanı** iyulun 1-dək əcnəbi vətəndaşlar üçün yeni vergilər tətbiq etməlidir. Hazırkı vergi rejimlərinə əsasən, əcnəbi işçilərinin sayı yerli işçilərdən çox olan şirkətlər ölkə vətəndaşı olmayan hər işçi üçün ayda 200 real (53 dollar) vergi ödəyirlər.

**Braziliya** senatı fiziki şəxslər tərəfindən ölkəyə gətirilən, dəyəri 1 milyon dollara qədər olan malların idxal rüsumundan azad edilməsi barədə məsləhətləşmələrə başlamışdır. Hazırda Braziliya vətəndaşları dəyəri 500 ABŞ dollarına qədər olan malları vergi ödəmədən xaricdən ölkəyə gətirə bilirlər.

**Kosovo** və **İsveçrə** ikiqat vergitutmanın qarşısının alınması barədə saziş imzalamışlar. Bu saziş müəyyənləşdirilmiş mənfəət vergisinin dərəcəsinin məhdudlaşdırılmasına və vergidən yayınmanın qarşısının alınmasına imkan yaradacaq.

**Rusiya**nın Baş naziri Dmitri Medvedev daxili aviadaşımalardan 10 faiz dərəcəsi ilə tutulan əlavə dəyər vergisinin müddətinin 2020-ci ilədək uzadılması, eləcə də bu dərəcənin 0 faizə endirilməsi məsələsinə baxılması barədə tapşırıq vermişdir.

**Meksika və Panama** vergilərə dair informasiyanın avtomatik mübadiləsinə dair saziş imzalamışlar. Meksika bəyan edilməmiş aktivlərin qaytarılması ilə bağlı güzəştli şərtlər təklif etmişdir.

# İspaniyada vergi amnistiyası ləğv edildi, Kanadada isə şərtlər dəyişdirildi



İspaniyanın Konstitusiya Məhkəməsi 2012-ci ildən tətbiq olunan vergi amnistiyasını ləğv etmişdir. Məhkəmə öz qərarında bildirmişdir ki, vergi amnistiyasının elan edilməsi vergidən yayınan intizamsız ödəyicilərə öz borclarının cəmi 3 faizini qaytarmağa şərait yaratdığı üçün qeyri-qanuni olmuşdur. Əvvəlcə hökumət vergi borclarının minimal məbləğini 10 faiz səviyyəsində müəyyənləşdirmiş, lakin tezliklə bu göstərici 3 faizə endirilmişdir. Vergi amnistiyası əvvəldən ziddiyyətli olmuşdur, çünki hökumət faktiki olaraq ölkə qanunvericiliyini pozan vergi ödəyicilərini əfv etmişdir. Bundan əlavə, vergi sxemlərində iştirak edən çoxlu sayda hökumətə yaxın şəxslər yaranmış fürsətdən istifadə etmişlər. Üstəlik də vergilərinin bir hissəsini ödəmiş vergi ödəyiciləri, İspaniyanın vergi qanunvericiliyinə əsasən, qalan məbləği ödəməkdən azad edilməyəcəklər.

Kanada hökuməti isə vergilər barədə məlumatların könüllü şəkildə açıqlanması proqramı ilə bağlı məsləhətləşmələrə başlanıldığını elan etmişdir. Belə planlaşdırılır ki, vergi amnistiyasının çərçivələri nə yenidən baxılacaq, proqramın şərtlərindəki «səxavətlilik» azaldılacaq.

Vergilərə aid məlumatların könüllü şəkildə açıqlanması vergilərin ödənilmədiyi dövr üçün maliyyə informasiyalarının könüllü şəkildə verilməsini nəzərdə tutur. Verilən informasiyanın Kanada vergi xidmətini qane edəcəyi təqdirdə, vergi ödəyicisinə aşağı salınmış vergi dərəcəsi tətbiq ediləcək, bundan əlavə, qanunda nəzərdə tutulan inzibati və ya cinayət məsuliyyəti açılması kimi sanksiyalar tətbiq olunmayacaq.

Vergi amnistiyası ilə bağlı məsləhətləşmələrə başlanılmasının başlıca səbəbi bütün vergi ödəyicilərinə eyni şərtlərin tətbiq edilməsinin, hökumətin mövqeyinə görə, ədalətli olmaması ilə bağlıdır. Buna görə də hökumət transfer qiymətqoymadan istifadə edən şirkətlərin; 250 milyon Kanada dollarından (315 milyon manatdan) artıq olan şirkətlərin; eləcə də vergi ödəmədiklərinə görə barələrində cinayət işi qaldırılmış şirkətlərin siyahıdan çıxarılmasını təklif etmişdir.

# BEPS konvensiyasına 68 dövlət qoşulub

İyunun 7-də Parisdə İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) vergi bazasının yuyulmasının və gəlirlərin qəsdən azaldılmasının qarşısının alınması (BEPS) layihəsi çərçivəsində konvensiyasına 68 ölkə qoşulmuşdur. Bunlar ikiqat vergitutmanın aradan qaldırılması barədə saziş imzalamış ölkələrdir.

Beləliklə, konvensiyanın şərtləri bütün dünya üzrə 1100-dən çox vergi müqaviləsinin yerinə yetirilməsi üçün məcburi olacaq. Konvensiya vergi mübahisələrinin həllinə, o cümlədən arbitraj prosesləri (konvensiyaya qoşulmuş 25 ölkə tərəfindən qəbul edilmişdir), kömək etmək üçün nəzərdə tutulmuşdur. Bundan əlavə, konvensiya həm də vergitutma məsələləri ilə bağlı sərmayəçilərin əminliyini artıracaq.

Qeyd edilmişdir ki, konvensiyaya qoşulan ölkələrdən əlavə, səkkiz ölkə də BEPS-ə qoşulmaq üçün fəal maraq göstərir və hazırda bununla əlaqədar öz milli qanunvericiliklərində təkmilləşmə aparırlar. Konvensiyanın müddəalarının birinci hissəsi 2018-ci ildən qüvvəyə minəcəkdir.

# Bu ilin may ayında Hindistana qızıl idxalı dörd dəfə artıb

Qəzetimizin ötən buraxılışında xəbər verdiyimiz kimi, Hindistanda qızılın satışı yerli hökumətin iyulun 1-dən tətbiq etməyi planlaşdırdığı mallar və xidmətlər üçün yeni unifikasiya edilmiş vergi rejimi çərçivəsində 3 faizlik vergiyə cəlb olunacaq. Ondan əvvəl isə hökumət ən zəruri həyat əhəmiyyəti daşıyan mallardan tutulan verginin dərəcələrinə yenidən baxılacağını vəd etmişdi.

Hökumətin bu planı yerli qızıl bazarını hərəkətə gətirmişdir. May ayında ölkəyə qızıl idxalı dörd dəfə artmış, 126 metrik tona çatmışdır. 2015-ci ilin may ayında bu göstərici cəmi 31,5 ton olmuşdu.

Ekspertlər bazarda təlaş yaradan bu qorxunun əbəs olduğunu göstərirlər. İrəli sürülən proqnozlara əsasən, yeni vergi rejimi sayəsində 2020-ci ildə Hindistanda qızıla olan tələbat 850-950 tona çatacaq. Bu il isə tələbatın 650-750 ton arasında olacağı gözlənilir. Qızılın ölkəyə kənardan gətirilməsi Hindistanda bu qiymətli metala olan tələbi tamamilə qarşılayır.



krossvord

**Yuxarıdan aşağı:** 1.Amerika qitəsini kəşf etmiş məşhur səyyah; 2.Fenol sinfinə aid kimyəvi maddə: rəngsiz, açıq havada tez saralan və qərənfil ətirli maye; 3.1914-cü ildə iki qardaş tərəfindən qurulan avtomobil və yük maşını istehsalı şirkəti. Hal-hazırda bu avtomobil markası ABŞ-ın «Chrysler» şirkətinə daxildir; 4.Azərbaycan yazıçısı, dramaturq, şair, filoloq-alim, ədəbiyyatçı, dövlət və ictimai xadiminin adı; 5.Tatarıstan Respublikasının paytaxtı; 6.Qədim yunan mifologiyasında bilik və müdrikliyin rəmzi olan quş. «Nə? Harada? Nə zaman?» intellektual oyununun simvolu; 9.Azərbaycan Respublikasının tanınmış riyaziyyatçı alimi, bir sıra dövlət mükafatının laureatı, əməkdar elm xadiminin adı. Görkəmli filoloq-alim Cəfər Xəndanın oğlu; 13.Qərbi Kolumbiyada bələdiyyə və şəhər; 15.Şərqi Avropada dövlət; 16.Fəlsəfi kateqoriya, predmet; 17.Zamin; 18.Yaşına görə çox savadlı, yüksək intellekt və bacarığa malik nadir uşaqlara deyilir; 20.İkiləpəlilər sinfinə aid bitki yarımsinfi; 21.Dümdüz, bərabər, eyni vəzndə.

**Soldan sağa:** 1.Sıx, nazik ipək parça; 5.Həndəsi fiqur; 7.Alazan vadisində (Gürcüstan) şəhər; 8.Kişi adı; 10.Argentinada şəhra; 11.Hindistanda şəhər. Uttar Prades ştatının mərkəzi; 12.Quba rayonunda kənd; 14.İşıqlandıran, yandıran. Azərbaycanda qız adı; 19.Kofe bişirmək üzrə mütəxəssis (kofe üzrə barmen); 21.Səhər hava işıqlanan və ya axşam hava qaralmağa başlayan vaxt, alaqaranlıq; 22.Azərbaycan bəstəkarının adı; 23.Belarusda şəhər; 24.RF-nin Tomsk vilayətində çay; 25.Entuziazm - Böyük şövq, həvəs, vəcd.



*Qədim yunan mifologiyasında bilik və müdrikliyin rəmzi olan quş. «Nə? Harada? Nə zaman?» intellektual oyununun simvolu*

**Tərtib etdi: Rafael**

*Qəzetimizin ötən nömrəsində getmiş krossvordun cavabları:*

**Yuxarıdan aşağı:** 1.Adonis; 2.Butilen; 3.Səmum; 4.Bizlan; 5.Dolma; 6.Barxan; 9.Marş; 13.Azot; 15.Admiral; 16.Oktant; 17.Balina; 18.Unitas; 20.Palaz; 21.Ureki. **Soldan sağa:** 1.Abbasabad; 5.Dəb; 7.Optimizm; 8.Alar; 10.İslam; 11.Alabama; 12.İnnab; 14.Aşpaz; 19.Koppola *(Frensis Ford)*; 21.Usman; 22.Ayla; 23.Vineqret; 24.Toz; 25.Qladiolus.

Vergilər
SOSİAL-İQTİSADİ HƏFTƏLİK
12 fevral 2000-ci ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Vergilər Nazirliyi

Baş redaktor: Anar Əliyev anar.eliyev@taxes.gov.az

Baş redaktor müavini: Məti Osmanoğlu redaksiya@vergiler.az

Qeydiyyat şəhadətnaməsi № R148
VÖEN: 1300327481
IBAN: AZ46ATAZ01200012258000138090
Atabank ASC. Kod: 507581
VÖEN: 9900006651

M/h: AZ50NABZ01350100000000032944
S.W.I.F.T. BIK ATAZAZ22

Ünvan: AZ 1141, Bakı ş., Əbdürrəhim bəy Haqverdiyev küç., 60

Telefon: 012 403 87 89, 012 403 87 95 (faks / abunə ilə bağlı)

«Vergilər» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və «Azərbaycan» nəşriyyatında çap olunmuşdur.

Tiraj: 15000

idman

# Dünyanın ən güclüləri Rusiyada üz-üzə...

İyunun 17-də futbol üzrə sayca 10-cu Konfederasiyalar Kubokuna start verilib. Rusiyanın dörd şəhərində - Moskva, Sankt-Peterburq, Kazan və Soçidə keçirilən və iyulun 2-dək davam edəcək çempionatda FIFA-nın tərkibinə daxil olan 6 konfederasiyanı təmsil edən 8 komanda iki qrupda mübarizə aparır. «A» qrupunda ev sahibi Rusiya, Yeni Zelandiya, Portuqaliya və Meksika, «B» qrupunda isə Kamerun, Çili, Avstraliya və Almaniya millilləri yer alıblar. Final qarşılaşması iyulun 2-də baş tutacaq.

...Konfederasiyalar Kuboku ilk dəfə 1992-ci ildə Kral Fəhd Kuboku adı altında Səudiyyə Ərəbistanında keçirilib. Səudiyyə Ərəbistanı 1995-ci ildə ikinci turnirə də ev sahibliyi edib. Bundan sonra FIFA bu turniri öz nəzdinə alaraq yeni qaydalar müəyyən edib. 2005-ci ilədək hər iki ildən bir keçirilən turnir, həmin tarixdən sonra dörd ildən bir təşkil olunmağa başlanıb.

Qaydalara görə, Konfederasiyalar Kuboku turniri dünya çempionatından bir il əvvəl mundiala ev sahibliyi edəcək ölkədə keçirilir. Dünya çempionatına hazırlıq məqsədi daşıyan turnirdə iştirak edən səkkiz komandanın ikisi - dünya çempionatının sonuncu qalibi və ev sahibi olan ölkənin millisi Konfederasiyalar Kubokunda birbaşa iştirak hüququ qazanır. Digər altı komanda isə FIFA-nın konfederasiyaları - CAF, CONMEBOL, UEFA, AFC, OFC, CONCACAF üzrə çempion olan millilərdir. Əgər dünya çempionu olan komanda həm də konfederasiyalardan birinin qalibi olarsa, onda finala çıxan digər milli komanda turnirə qatılmaq şansı əldə edir.

Qeyd edək ki, Sankt-Peterburqda keçirilən turnirin ilk oyununda «A» qrupunda çıxış edən Rusiya yığması Yeni Zelandiya millisini 2:0 hesabı ilə məğlubiyyətə uğradıb. Qrupun digər təmsilçiləri - Portuqaliya və Meksika komandalarının görüşündə isə qalib müəyyənləşməyib - 2:2. «B» qrupunun ilk oyununda Çili millisi Kamerun komandasına 2:0 hesabı ilə qalib gəlib. Turnirin favoriti hesab olunan Almaniya millisi isə Avstraliyanı məyus edib - 3:2.

# Azərbaycan klublarının rəqibləri bəlli oldu

İyunun 19-da UEFA-nın İsveçrənin Nyon şəhərindəki mənzil-qərargahında futbol üzrə Çempionlar Liqasında 2017/2018-ci il mövsümünün ilk püşkatma mərasimi keçirilib. Qitənin ən nüfuzlu klub turnirinin növbəti mövsümündə Azərbaycanı ölkə çempionu «Qarabağ» təmsil edəcək.

Çempionumuzun mübarizəyə başlayacağı ikinci təsnifat mərhələsində 34 klub qüvvəsini sınayacaq. Püşkdə 29 komanda və birinci təsnifat mərhələsinin 5 cütü hərəsində 17 iştirakçı olmaqla iki səbətə bölünüb. Yarışa ikinci təsnifat mərhələsindən qoşulacaq və birinci səpələnmişlər səbətində yer alan «Qarabağ»ın rəqibi Gürcüstanın «Samtredia» klubu olub. İkinci təsnifat mərhələsinin oyunları iyulun 11-12-də (ev) və 18-19-da (səfər) baş tutacaq.

Çempionlar Liqasının final görüşü Ukraynanın paytaxtı Kiyev şəhərində keçiriləcək.

Həmin gün Avropa Liqasının 2017/2018-ci il mövsümünün birinci və ikinci təsnifat mərhələsinin də püşkü atılıb. Avroliqanın ilk təsnifat mərhələsində 100 klub mübarizəyə başlayacaq. Daha yüksək reytinqli 16 komanda isə ikinci təsnifat mərhələsində yarışa qoşulacaq.

İlk təsnifat mərhələsində «İnter» Serbiyanın «Mladost Luçani», «Zirə» isə Lüksemburqun «Differdanj 03» klubu ilə qarşılaşacaq. Azərbaycan Premyer Liqasının gümüş medalçısı «Qəbələ» isə ikinci təsnifat mərhələsindən mübarizəyə başlayacaq 16 komandadan biridir. Güclülərin arasında olan «Qəbələ» nisbətən zəif rəqiblə - ilk təsnifat mərhələsində qarşılaşacaq «Yaqiellonia Bialistok» (Polşa) və «Dinamo Batumi» (Gürcüstan) cütlüyünün qalibi ilə görüşəcək. «Qəbələ» ilk oyunu iyulun 13-də evdə, iyulun 20-də isə səfərdə keçirəcək.

UEFA Avropa Liqasının final matçı gələn il mayın 18-də Fransanın Desen-Şarpye şəhərində keçiriləcək.

# Formula-1 Azərbaycan Qran-Prisi sürət götürür...




İyunun 23-25-də Bakı növbəti dəfə dünyanın ən populyar idman tədbirlərindən olan «Formula-1» yarışlarına ev sahibliyi edəcək. Bunun üçün paytaxtın mərkəzi küçələrində hazırlıq işləri başa çatıb.

Xatırladaq ki, «Formula-1» dairəvi və sürətli avtoyürüş üzrə dünya çempionatıdır. 1950-ci ildən başlayaraq hər il keçirilən bu yarışın müxtəlif şəhərlərdə Qran-pri mərhələləri təşkil olunur. Bu mərhələlərdə toplanan xallara əsasən pilotlar və komandalar ilin sonunda çempionluq titulu qazanırlar. Onu da qeyd edək ki, bolid adlandırılan müasir «Formula-1» avtomobilləri bir sıra özəllikləri ilə fərqlənir. Onlar tək adamlıq olur, üstəlik, sürücü yeri və təkərləri açıqdadır. Komandalar avtomobilləri özləri istehsal etsələr də, hər biri tanınmış avtomobil markalarının motorlarını, yağını və istehsal etdikləri digər detalları istifadə edirlər.

## İdmançımız çempionluğu bayram etdi

Yaponiyanın Saytama şəhərində keçirilən «K-1 World Grand Prix-2017» turnirində çıxış edən Azərbaycan kikboksçusu Çingiz Allazov ardıcıl üç qələbə qazanaraq çempion olub.
Kikboksçumuz dörddəbir finalda yaponiyalı K-1 ustası Xiroki Nakadjimaya ikinci raundda nokautla qalib gəlib.
Yarımfinal döyüşündə isə idmançımız «Mike's Gym» klubunu təmsil edən Yordan Pikeri üçüncü dəqiqədə nokautla məğlub edib.
Ç.Allazov final döyüşündə turnirin favoritlərindən hesab edilən Yaponiya təmsilçisi Sanni Daxlbeki üzərində qələbə qazanıb və yarışın ən yaxşı döyüşçüsünə verilən kəmərə sahib olub.



mozaika

maraqlı

## Şarlardan heykəl



Yaponiyalı rəssam Masayoşi Matsumoto hava şarlarından düzəltdiyi qeyri-adi heykəlləri ictimaiyyətə təqdim edib. Adi hava şarlarından mürəkkəb fiqurlar ərsəyə gətirən rəssam bu sənətdə xeyli irəli gedib.

Həvəskar-heykəltəraş öz yaradıcılığı haqda deyib: «Mən yeddi il bundan əvvəl bu cür heykəllər düzəltməyə başlamışam. Vəhşi təbiətə olan marağım məni hava şarlarından animasiya heykəlləri düzəltməyə həvəsləndirdi».

Qeyd edək ki, hər bir fiquru düzəltmək üçün rəssama 2-6 saat vaxt lazım olur və bu zaman o, heç bir əlavə alətdən istifadə etmir.

mədəniyyət

## «Nar və yanardağ»

«Bakı-Berlin» qalereyasının rəhbəri Ebrahim Əhrari əslən Cənubi Azərbaycandandır. Onun təşkilatçılığı ilə Almaniyanın Klaynzassen şəhərində «Nar və yanardağ» adlı sərgi açılıb. Sərgidə nümayiş etdirilən əsərlərin əksəriyyəti son illərdə Azərbaycanın mədəni irsi və onun müasir həyatında cərəyan edən hadisələrə həsr olunub.

Sərgi alman mətbuatının da marağına səbəb olub və onun fəaliyyəti «Marktkorb» və «Fuldaer Zeitung» qəzetləri tərəfindən işıqlandırılıb. Bu məqalələrdə azərbaycanlı rəssamlar tərəfindən çəkilmiş rəsm əsərlərinin çoxunda, xüsusilə gənc rəssamların əsərlərində Qərb və Şərq rəssamlığına məxsus elementlərin sintez edilməsinin alman publikasında böyük marağa səbəb olduğu yazılır.

Sərgi çərçivəsində, həmçinin, Azərbaycan musiqi nümunələrindən ibarət konsert proqramlarının keçirilməsinin, habelə Almaniya-Azərbaycan Forumunun icraçı direktoru Pərviz Yazdani tərəfindən Azərbaycanın mədəni irsinə dair məruzə edilməsinin nəzərdə tutulduğu xəbər verilir.

Sərgi avqustun 27-dək davam edəcək.



sağlam qida

## Gilas mövsümü

Təkcə yaraşıqlı və cəlbedici görkəmi ilə deyil, həm də sağlamlıq əhəmiyyətinə görə gilas çox faydalı meyvələrdən hesab olunur. Oduncağından xarratlıq məmulatları, nazik budaqlarından isə qəlyan çubuqları hazırlanır. Arıçılar onun çiçəklərini çox balverən məhsul kimi də yüksək dəyərləndirirlər. Arılar 1 hektar çiçəkləyən gilas sahəsindən 35-40 kiloqram bal istehsal edir.

Gilasın sulu və tumlu meyvələrinin tərkibində orqanizmdə qocalığı ləngidən və həzm sistemini yüksək səviyyəyə çatdıran antioksidantlarla zəngindir. Mədə-bağırsaq, sidik yolları xəstəliklərində, həmçinin iştahartırıcı pəhriz qidası kimi çox xeyirlidir. Meyvə və şirəsi qaraciyər xəstəliklərində müalicə vasitəsi kimi tətbiq edilir, xroniki mədə-bağırsaq sistemi xəstəliklərində də həzm prosesini yaxşılaşdıran və maddələr mübadiləsini tənzim edən vasitə kimi istifadə olunur.



Gilasın saplağı həzm problemi olanlar üçün faydalıdır. Bunun üçün saplaqlar yuyulub qurudulur və suda qaynadılaraq içilir. Həddindən artıq içiləndə ishal və qarın ağrısına səbəb olur, ona görə qədərində içilməlidir.

Diyetoloqların fikrincə, gilas qan damarlarını təmizləyir və möhkəmləndirir, qanda xolesterini azaldır, orqanizmdən artıq mayeni çıxarır. Varikoz xəstəliyi və anemiyadan əziyyət çəkənlər üçün xüsusilə xeyirlidir. Sarı gilasda qlükozanın miqdarı çox olduğuna görə, diyetoloqlar onu diabet xəstələrinə məsləhət görmürlər. Allergiyadan əziyyət çəkənlər də qırmızı gilas yeməkdən imtina etməlidirlər. Gilası qida qəbulundan dərhal sonra yox, yeməkarası qəbul etmək daha yaxşıdır.

El arasında: «Gilasdı, bəsdi...» ifadəsi təsadüfən işlədilmir. Məsələ burasındadır ki, gilas meyvəsi xeyirli olsa da, onun çox qəbul edilməsi mədə-bağırsaq sistemində meteorizm, yəni köpmə yarada bilər. Qədərindən artıq gilas yeyilməsi spazmaya da səbəb olur.

ekologiya

## Həyat havadan asılıdır

Avropa və Mərkəzi Asiya ölkələrində havanın çirklənməsi ciddi xəstəliklərə səbəb olur və hər il 1,4 milyon insanın vaxtsız ölümünə səbəb olur ki, bu da regionda bütün ölüm hallarının 15 faizini təşkil edir. Dünya Səhiyyə Təşkilatının (DST) Avropa Bürosunun rəhbəri Jujanna Yakab Çexiyada Ətraf Mühit və Sağlamlığın Qorunması Konfransında çıxışı zamanı söyləyib.

«Dayanıqlı inkişaf dövründə biz ətraf mühitin çirklənməsi ilə bağlı olan 1,4 milyon ölüm halının qarşısını ala bilərik. Bunun üçün biz sağlamlıq məsələlərini dövlət idarəçiliyinin bütün sektorlarının siyasi prioritetlərinə daxil etməliyik», - deyə Jujanna Yakab bildirib.

İyunun 15-dək davam edəcək konfransda DST-nin Avropa regionuna 53 üzv ölkədən 450 nümayəndə, habelə beynəlxalq və qeyri-hökumət təşkilatlarının nümayəndələri iştirak edirlər. Onlar insanların sağlamlığı üçün ekoloji risklərin azaldılması üzrə tədbirləri nəzərdə tutan Deklarasiya imzalayacaqlar.

DST-nin məlumatına görə, ürəyin işemik xəstəliyinin 26 faizi, insultun 25 faizi, onkoloji xəstəliklərin 17 faizi ekoloji risk amilinin payına düşür. Aşağı gəlirli ölkələrdə ətraf mühitin çirklənməsi ilə bağlı ürək xəstəlikləri halları regionun zəngin ölkələrindən üç dəfə çoxdur. Avropada ölümün başlıca ekoloji səbəbi nəqliyyat, sənaye müəssisələri və enerji istehsalı ilə bağlı havanın çirklənməsidir. Lakin insanlar evlərin qızdırılması və yemək bişirilməsi üçün istifadə edilən odun, kömür və digər bərk yanacaq nəticəsində mənzildə havanın çirklənməsi səbəbindən də xəstələnirlər.

2015-ci ildə bəşər tarixində ilk dəfə şəhər əhalisinin sayı kənd əhalisini ötüb. 2030-cu ilədək orta hesabla hər 10 avropalıdan 8-i şəhərlərdə yaşayacaq, bununla da çoxsaylı ekoloji risk amillərinin təsirinə məruz qalacaq.

**Müdriklər deyib ki...**



*«İşığın harada olduğunu dərk et, qaranlığın yerini başa düşəcəksən».*
*Aleksandr Blok (1873-1928)*